RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 250 (8843) CÜMƏ 19 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İqtisadi qüdrətin uğur formulu

## Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Əziz uşaqlar!

Sizi - Uşaqların V Ümumrespublika Forumunun iştirakçılarını, eləcə də ölkəmizin bütün uşaqlarını səmimi-qəlbdən salamlayır, Ümumdünya Uşaqlar Günü münasibətilə hər birinizi təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Uşaqlar cəmiyyətin sabahıdır. Övladlarımızın milli dəyərlərə sadiq və yüksək mənəviyyatlı şəxsiyyət olaraq formalaşmalarının ölkəmizin tərəqqisi baxımından müstəsna əhəmiyyəti vardır. Uşaq hüquqlarının qorunması ilə bağlı Azərbaycan dövlətinin ardıcıl həyata keçirdiyi sosialyönümlü siyasət də bu məqsədə xidmət edir. Ötən forumunuzda səsləndirilmiş bir çox məsələlər uşaqlarımızın hüquqlarının müdafiəsinin kompleks şəkildə təmin olunmasına yönələn “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nda dolğun əksini tapmışdır.

Siz uşaqlar xoşbəxtsiniz ki, yeni əsrə və yeni minilliyə müstəqil dövlət olaraq qədəm qoymuş ölkəmizdə dünyaya göz açmısınız. Siz fəxr etməlisiniz ki, qalib xalqımızın şərəfli və qürurverici tarixinin şahidlərisiniz.

Vətən müharibəsində qazanılan Zəfərlə Azərbaycan Ordusu yalnız tarixi ədaləti deyil, həm də bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımızın 30 ildən artıq müddətdə pozulan hüquq və azadlıqlarını bərpa etdi, düşmən təxribatlarına qurban getmiş məsum övladlarımızın qisasını alaraq öz möhtəşəm gücünü və hərbi qüdrətini bütün dünyaya çatdırdı.

Bu gün Azərbaycan sürətli inkişaf yolundadır. Yurdumuzun ildən-ilə daha güclü, daha qüvvətli olması eyni zamanda sizin xoşbəxt və firavan yaşamağınızın rəhnidir. İndiki nəsil qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəkdir. Odur ki, üzərinizə düşən məsuliyyəti daha dərindən dərk edərək daim əzmlə çalışmalı, Vətəni layiqincə təmsil etməlisiniz. İnanıram ki, siz mənən zəngin nəsil kimi azərbaycançılıq ruhunda böyüyərək boya-başa çatacaq, respublikamızın gələcək inkişafı və uğurlar qazanması naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Əziz övladlar!

Bütün Azərbaycan uşaqlarını təmsil etməklə bu forumda iştirakınız sizə göstərilən böyük etimadın təzahürüdür. Ümidvaram ki, forum çərçivəsində aparacağınız müzakirələr ölkəmizdə uşaqlarla bağlı dövlət siyasətinin gerçəkləşdirilməsində yeni mərhələnin başlanğıcı olacaqdır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 noyabr 2021-ci il*

## Zəfər büdcəsi 2022-ci ildə qarşıya qoyulan strateji vəzifələrin yerinə yetirilməsini təmin edəcək

İqtisadi və hərbi qüdrəti möhkəm olan dövlət bütün sahələrdə uğur qazanmağa qadirdir. Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan da güclü iqtisadiyyata, qüdrətli orduya sahib olan dövlət kimi Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan ölkəyə çevrilib. 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Zəfər isə ölkəmizin beynəlxalq nüfuzunun, siyasi çəkisinin daha da artmasını şərtləndirib.

### İqtisadiyyatımız böhran dövrünü arxada qoyub

Azərbaycan iqtisadi meyar və parametrlər üzrə kimdənsə asılı deyil. Hətta ölkəmiz istər xarici borc, istər iqtisadi artım, istərsə də adambaşına düşən valyuta ehtiyatları baxımından iqtisadi sahədə ən qabaqcıl yerlərdədir. İqtisadi müstəqillik siyasi müstəqilliyin möhkəmləndirilməsi baxımından əsas şərtdir.

Hazırda yaşadığımız postmüharibə dövründə ölkə iqtisadiyyatının artım tempi bərpa edilir və inkişaf göstəriciləri yüksəlir. Ölkənin neft sahəsindən asılılığını aradan qaldırmaq istiqamətində görülən tədbirlər də bəhrəsini verməkdədir və bunu qeyri-neft sektorundakı artım da təsdiq edir.

İqtisadi fəallığın artması ölkəmizin maliyyə-iqtisadi göstəricilərinin də yaxşılaşmasına səbəb olmaqdadır. Gələn ilin dövlət büdcəsinin bütün göstəriciləri onu deməyə əsas verir ki, 2022-ci ildə də qarşıya qoyulan strateji vəzifələr yerinə yetiriləcək.

Müstəqillik tarixində ən böyükhəcmli büdcə layihəsi artıq Milli Məclisdə birinci oxunuşda qəbul edilib. Gələn il büdcə xərcləri ilk dəfə olaraq 30 milyard manata yaxınlaşacaq. Bu da 2021-ci illə müqayisədə 1 milyard 336 milyon manat artıq vəsait deməkdir. Bu da bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf strategiyası ölkənin dinamik inkişafını təmin etməyə imkan verib.

*Ardı 4-cü səh.*

## TDT-nin rəqəmsal dünyaya baxışı Qarabağdan keçir

### Təşkilatın VIII Zirvə Görüşündə günün digər vacib iqtisadi məsələlərindən də bəhs olundu

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü “Rəqəmsal dövrdə “yaşıl texnologiya”lar və “ağıllı şəhərlər” mövzusuna həsr edilsə də, müzakirə olunan məsələlərin sırasında ölkələrimiz arasında iqtisadi və ticari, nəqliyyat və logistika əlaqələrinin möhkəmləndirilməsinin vacibliyindən də danışıldı.

Türk dövlətləri başçıları Zirvə görüşündə rəqəmsal dünyanın yenilikləri ilə yanaşı, günün vacib məsələlərinə toxundular, təşkilatın gələcəyi ilə bağlı bir sıra mühüm qərarlar qəbul etdilər. Bunlardan ən vacibləri təşkilatın adının Türk Dövlətləri Təşkilatı (TDT) kimi qəbul edilməsi, Türk İnvestisiya Fondunun yaradılması, “Türk dünyası-2040” adlı proqramın təsdiqi idi.

*Ardı 4-cü səh.*

## Soyuq gündə isti dərdi

### Mərkəzi istilik sisteminə qoşulanların içi özlərini yandırır, çölü özgəni

Təbii qazın istehlak qiymətləri və limitləri sonuncu dəfə dəyişdirildikdən sonra evini və mənzilini yaxşı halda kombi, pis halda isə camaatın “ceyran peçi” adlandırdığı soba və ya mətbəx plitəsi ilə qızdıranlar mərkəzi istilik sistemindən istifadə edənlərə həsəd aparmağa başladılar.

Boş yerdən deyildi. Axı mərkəzi istilik sistemindən istifadə haqqı kombiyə, yaxud plitəyə və sobaya sərf olunan təbii qazın qiymətindən dəfələrlə ucuz başa gəlir. İndiki vaxtda isə bu, əksəriyyət üçün heç də az (maddi) əhəmiyyət kəsb etmir.

*Bax: səh. 8*



## Müstəqilliyimizin ən böyük amnistiya aktı

Prezident İlham Əliyevin təşəbbüsü ilə Milli Məclis noyabrın 5-də “8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında” qərar qəbul etdi. Bu, şəxslərin sayına və əhatə etdiyi cinayət məsuliyyətindən və cəzadan azadetmə institutlarının dairəsinə görə Azərbaycanın tarixində tətbiq edilən ən böyük amnistiya aktıdır. Zəfər amnistiyası 17 min nəfər şəxsə şamil olunub.

### Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasəti

Azərbaycan müstəqillik yoluna qədəm qoyduqdan sonra ölkəmizdə insanlıq və humanizm prinsiplərinə xidmət edən xeyirxah tədbirlərin çox şahidi olmuşuq.

*Ardı 4-cü səh.*




# Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır

*Bax: səh. 7*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381,1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894) aşağıdakı dəyişikliklər edilsin:

1. 38.1-ci maddənin ikinci cümləsinə birinci halda "habelə" sözündən sonra "qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa," sözləri əlavə edilsin.

2. 102.1-ci maddəyə "351-1-ci," sözlərindən sonra "398-ci," sözləri əlavə edilsin.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 05 noyabr 2021-ci il*

## Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 25-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787; 2014, № 10, maddə 1155, № 11, maddə 1368; 2016, № 11, maddə 1791; 2017, № 3, maddə 339, № 7, maddə 1303, № 8, maddə 1510; 2018, № 1, maddə 30, № 11, maddə 2211, № 12 (I kitab), maddə 2521; 2019, № 1, maddə 30, № 5, maddə 814, № 8, maddə 1383; 2020, № 5, maddə 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1438) aşağıdakı dəyişikliklər edilsin:

1. 167.3.2-ci maddəyə "təqdim edən və" sözlərindən sonra "bu Məcəllənin 167.3-1-ci maddəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 167.3-1-ci maddə əlavə edilsin:

"167.3-1. Gömrük orqanları malların daxildə emal xüsusi proseduru altında yerləşdirilməsinə icazə verməzdən əvvəl yalnız bu Məcəllənin 252-ci maddəsinə uyğun olaraq təminatın verilməsini tələb edə bilərlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

## Azərbaycanın xarici işlər naziri ilə ABŞ Dövlət katibinin köməkçisi arasında telefon danışığı olub

Noyabrın 18-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Amerika Birləşmiş Ştatları Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı olub.




Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Karen Donfrid Azərbaycan və Ermənistan sərhədində yaşanan gərginlikdən narahatlığını ifadə edib, hər iki tərəfi deeskalasiyaya və fikir ayrılıqlarını sülh yolu ilə həll etməyə çağırıb.

Nazir Ceyhun Bayramov son günlərdə Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilən silsilə təxribatçı addımlar barədə qarşı tərəfə ətraflı məlumat verib. Nazir bölgədə vəziyyətin gərginləşməsi məsuliyyətinin bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü vurğulayıb.

Azərbaycanın beynəlxalq hüququn prinsipləri əsasında Ermənistanla delimitasiya prosesinə başlamağa hazır olduğu, lakin Ermənistan tərəfindən buna qarşılıq verilmədiyi qeyd olunub.

Telefon danışığı zamanı tərəflər həmçinin üçtərəfli bəyanatların icrası və digər regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

# Baş nazir Əli Əsədov Dünya Bankının vitse-prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 18-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerdenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.





Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə gələn il Azərbaycan ilə Dünya Bankı arasında tərəfdaşlığın qurulmasının 30 illiyinin qeyd olunacağı vurğulanıb, ötən müddət ərzində müxtəlif istiqamətlərdə birgə uğurlu layihələrin həyata keçirildiyi bildirilib.

Baş nazir Ə.Əsədov Azərbaycanın Dünya Bankı ilə əməkdaşlıqdan məmnun olduğunu və əməkdaşlığın gücləndirilməsinin vacibliyini qeyd edib.

Anna Byerden bildirib ki, ötən illər ərzində Azərbaycan aşağıgəlirli ölkədən yüksəkgəlirli donor ölkəyə çevrilib. O, habelə Azərbaycanda peyvəndlənmənin yaxşı səviyyəyə malik olduğunu qeyd edərək, bu sahədə fəaliyyətin uğurlu olduğunu deyib. A.Byerden 2021-ci ildə Azərbaycan iqtisadiyyatında artımın müşahidə olunmasının da yaxşı göstərici olduğunu vurğulayıb.

Görüşdə Dünya Bankının hazırlanmaqda olan Azərbaycana dair yeni Ölkə Tərəfdaşlıq Çərçivə sənədi, bankın Azərbaycanın "2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası"nın həyata keçirilməsində və işğaldan azad edilmiş ərazilərin bərpasında iştirakı, Dünya Bankının və onun strukturuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanın özəl sektoru ilə əməkdaşlığının genişləndirilməsi, həmçinin bank ilə ölkəmiz arasında kənd təsərrüfatı, rəqəmsal inkişaf, bərpaolunan enerji mənbələri və bir çox digər sahələrdə tərəfdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

Sonda Azərbaycan Respublikasında ofislərin qurulması və fəaliyyətinə dair Azərbaycan Respublikası və Dünya Bankı Qrupu Təşkilatları arasında yeni saziş imzalanıb. Sazişi Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Anna Byerde imzalayıblar.

## *Ceyhun BAYRAMOV:* "Bölgədə vəziyyətin gərginləşməsinin məsuliyyəti bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərindədir"

Noyabrın 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Linde arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon söhbəti zamanı Ann Linde bu il noyabrın 16-da Azərbaycan-Ermənistan sərhədində yaşanan gərginlikdən narahatlığını ifadə edib, hər iki tərəfi vəziyyətin gərginləşdirilməsindən çəkinməyə və konstruktiv dialoqa çağırıb.

Nazir Ceyhun Bayramov baş verən gərginliyin Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilən silsilə təxribatçı addımlardan növbəti biri olduğunu qeyd edib. Noyabrın 8-dən etibarən Ermənistan tərəfindən törədilən hərbi təxribatlar barədə ətraflı məlumat verən nazir bu xüsusda Ermənistanın keçmiş müdafiə nazirinin Azərbaycan ərazilərinə qanunsuz səfəri, Ermənistan silahlı qüvvələrinin 60-a yaxın şəxsi heyətinin Laçın rayonunda Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində cəmləşməsi, Şuşa yaxınlığında erməni terrorçuların Azərbaycan postuna hücumu, Ermənistan silahlı qüvvələrinin Kəlbəcər və Laçın rayonundakı Azərbaycan Ordusunun mövqelərini davamlı şəkildə atəşə tutması ilə bağlı məlumatları qarşı tərəfin diqqətinə çatdırıb. Bölgədə vəziyyətin gərginləşməsi və üçtərəfli Bəyanatın icrasına maneələr törədilməsinin məsuliyyətinin bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərində olduğu vurğulanıb.

Ermənistanın Azərbaycanı beynəlxalq hüququn prinsipləri əsasında delimitasiya prosesinə başlamaq çağırışına qarşılıq vermədiyini Ann Lindenin diqqətinə çatdıran Ceyhun Bayramov məsələnin konstruktiv dialoq vasitəsilə həllinin alternativinin olmadığını söyləyib.

Telefon danışığı zamanı tərəflər həmçinin ATƏT-in Stokholmda keçiriləcək nazirlər görüşünə hazırlıqla bağlı, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan uşaqlarının V Ümumrespublika Forumu keçirilib









Noyabrın 18-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, "Regional İnkişaf" İctimai Birliyinin və BMT-nin Uşaq Fondunun (UNICEF) birgə təşkilatçılığı ilə Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan Forumda ölkəmizdə dövlət uşaq siyasətinə həsr olunan videoçarx nümayiş etdirilib.

Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forum iştirakçılarına müraciətini oxuyub.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova forumun xalqımız üçün çox möhtəşəm hadisənin bayram edildiyi günlərə - Vətən müharibəsində qazanılan Zəfərin bir illiyi ilə eyni vaxta təsadüf etdiyini vurğulayıb. "Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində Qarabağın işğaldan azad edilməsinin birinci ildönümünü böyük ruh yüksəkliyi ilə qeyd edirik. Bu günləri bizə yaşatdıqları üçün Prezident İlham Əliyevə, Ordumuza təşəkkürümüzü bildiririk. Ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, onları ehtiramla yad edir, qazilərə isə şəfa arzulayırıq", - deyə komitə sədri qeyd edib.

Vətən müharibəsində qazanılan Qələbəni, torpaqlarımızın işğaldan azad edilməsini Azərbaycan uşaqları üçün də yeni bir dönəmin başlanğıcı kimi qiymətləndirən B.Muradova onların hüquqlarının müdafiəsi işinin daha da gücləndirilməsi istiqamətində böyük imkanlar yarandığını bildirib.

Azərbaycan uşaqlarının ümumrespublika forumlarının 2009-cu ildən keçirildiyini xatırladan komitə sədri deyib ki, belə tədbirlər uşaq hüquqlarının qorunması, uşaqlarla bağlı siyasi və hüquqi qərarların qəbulu, qanunvericiliyin təkmilləşdirilməsi, dövlət proqramları və fəaliyyət planlarının hazırlanmasında, həyata keçirilməsində uşaqların fikirlərinin nəzərə alınması üçün mühüm əhəmiyyət daşıyır.

Bahar Muradova deyib: "Bu forumlar uşaqların müzakirələrdə iştirakının təmin edilməsində çox vacib platformaya çevrilib. Forumların təşkili dövlət orqanlarının, ictimaiyyət nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının, eləcə də KİV-in diqqətini uşaqların hüquq və azadlıqlarının qorunmasının zəruriliyinə cəlb edilməsi baxımından da əhəmiyyətlidir. Bu forumların maraqlı və fərqləndirici cəhətlərindən biri də onların uşaqlar tərəfindən idarə edilməsidir".

Bu il dövlət müstəqilliyinin bərpasının 30 illiyini qeyd edən Azərbaycanda əhalinin 26,2 faizinin, yəni 2 milyon 636,8 min nəfərinin uşaqlar təşkil etdiyini diqqətə çatdıran Bahar Muradova dövlətimizin uşaqlarla bağlı yürütdüyü siyasət barədə danışaraq deyib: "Uşaqların sağlam ailə mühitində böyüməsi və tərbiyələnməsi, müasir standartlara uyğun keyfiyyətli təhsil alması, hər cür təzyiq və zorakı münasibətdən qorunması, xüsusilə həssas qrupdan olan uşaqlar üçün bütün imkanların təmin edilməsi dövlətimizin bu sahədə həyata keçirdiyi siyasətin prioritet istiqamətləridir. Müstəqilliyimizin və dövlətçiliyimizin xilaskarı, uşaqların sevimlisi olan Ümummilli Lider Heydər Əliyev tərəfindən 1990-cı illərdə əsası qoyulan bu siyasət uğurla davam etdirilir".

Komitə sədri foruma hazırlıq mərhələləri barədə məlumat verərək deyib ki, uşaqlar üçün maarifləndirici tədbirlər, dövlət qurumlarının rəhbərləri və digər tanınmış şəxslərlə görüşlər, eyni zamanda, yay məktəbi təşkil edilib. Bundan əvvəl keçirilən ümumrespublika uşaq forumlarında əldə edilən təcrübə gələcək işlər üçün mühüm bazadır.

Daha sonra çıxış edən "Regional İnkişaf" İctimai Birliyi Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Leyla Tağıyeva qeyd edib ki, uşaqların fiziki, əqli və psixi sağlamlığı, onların hərtərəfli şəxsiyyət kimi böyüməsi xalqımızın və dövlətimizin gələcəyi üçün vacib məsələlərdəndir. Xoşbəxt gələcəyə zəmin yaratmaq üçün uşaqlara erkən yaşlardan ağıllı sərmayə qoyulmalı, onlar keyfiyyətli təhsil, səhiyyə, sosial və digər xidmətlərlə təmin olunmalıdır. Bu, aidiyyəti dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və valideynlərin birgə səylərinin artırılmasını tələb edir. Uşaqlarla bağlı beynəlxalq əhəmiyyətli günlərin dövlət səviyyəsində qeyd olunması onlara olan qayğı və diqqətin təzahürüdür. Bu forum uşaq hüquqlarının, keyfiyyətli və inklüziv təhsilə, sosial və səhiyyə xidmətlərinə diqqəti yönəltmək baxımından olduqca vacibdir. Uşaqların firavan yaşayışının təmin edilməsi üçün onların hüquqlarının qorunması əsas şərtlərdən biridir. Ölkəmiz BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmaqla, eləcə də uşaq hüquqları ilə bağlı milli qanunvericilik bazasını təkmilləşdirməklə uşaq hüquqlarının qorunması məsələsində öz qəti mövqeyini nümayiş etdirir.

Uşaqlara dövlət qayğısından danışan Leyla Tağıyeva bu baxımdan Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üzrə Strategiyasını xüsusi vurğulayaraq deyib: "Cəmiyyətin sosial, ictimai və mədəni inkişafı sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə daim dəstək olan Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi uşaqların sağlamlığı, onların sosial problemlərinin həlli, hamı üçün bərabər və keyfiyyətli təhsil imkanlarının artırılması, xüsusi qabiliyyətli uşaqların aşkara çıxarılması və onların davamlı inkişafının təmin edilməsi, valideyn himayəsindən məhrum olmuş sağlamlıq imkanları məhdud uşaqların bilik və bacarıqlarının artırılması, cəmiyyətə fəal inteqrasiyasının təmin edilməsi, aztəminatlı və digər əsas kateqoriyalardan olan uşaqlara maddi və mənəvi dəstəyin göstərilməsi və digər istiqamətlərdə davamlı olaraq müxtəlif layihələr və tədbirlər həyata keçirir".

UNICEF-in Azərbaycan nümayəndəliyinin rəhbərinin müavini Min Yuan tədbir iştirakçılarını Uşaqların V Ümumrespublika Forumu və 20 Noyabr - Ümumdünya Uşaq Günü münasibətilə təbrik edib. O bildirib ki, uşaqlar naminə və uşaqlar tərəfindən görülən işləri qeyd etmək üçün bu, xüsusi bir gündür. 20 noyabr BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının qəbul olunduğu tarixdir.

Min Yuan COVID-19 pandemiyasının uşaqların təhsil, təlim, asudə vaxtının mənalı keçirilməsinə mənfi təsirindən danışaraq qeyd edib: "Bəzi uşaqların bəlkə də onlayn dərslərə tam çıxışı olmayıb. Bəzi uşaqlar bu dövrdə özlərini tənha, çətin vəziyyətdə hiss ediblər. Pandemiya uşaqların sağlamlığına da təsir göstərib. Azərbaycanda pandemiyanın təsirlərini azaltmaq istiqamətində hökumət tərəfindən görülən tədbirlər təqdirəlayiqdir. Bu gün azərbaycanlı uşaqlar və gənclər arasında bu qədər enerjini və gücü görmək bizdə xoş təəssürat oyadır. Uşaqlara, onların gələcəyinə yatırılan sərmayə eyni zamanda Azərbaycanın gələcəyinə qoyulan sərmayədir".

Çıxışlardan sonra dövlət və hökumət rəsmiləri forum iştirakçılarının uşaq hüquqları, təhsildə yeni standartlar, uşaqların internet təhlükəsizliyi, sağlamlığının qorunması, ətraf mühitin mühafizəsi, uşaqların şəxsiyyət kimi formalaşmasında ailə və cəmiyyət tandeminin rolu barədə suallarını cavablandırıblar.

Tədbir çərçivəsində iştirakçı uşaqların Türkiyə Respublikasından olan həmyaşıdları ilə videoformatda görüşü də keçirilib. Görüşdə iki qardaş xalq arasında birlik və həmrəyliyin əhəmiyyəti barədə fikirlər səsləndirilib.

Forumda Əlaqələndirmə Şurasının yeni tərkibi seçilib. Yeni seçilən şura Azərbaycan uşaqları adından silahlı münaqişələrdən əziyyət çəkən uşaqların hüquqlarının müdafiəsi ilə bağlı dünya ictimaiyyəti və beynəlxalq təşkilatlara ünvanlanan müraciətin mətnini elan edib.

Sonra Azərbaycan uşaqları adından Prezident İlham Əliyev üçün hazırlanan hədiyyə forumda nümayiş olunub. Hədiyyə Prezidentə təqdim edilməsi üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovaya verilib.

Sonda Forum iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

Koronavirus pandemiyası ilə əlaqədar ölkədə tətbiq edilən karantin rejiminin qaydaları və Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələri nəzərə alınmaqla hibrid formatda təşkil olunan tədbirdə Azərbaycanın bütün şəhər və rayonlarından fəallıqları ilə seçilən, xüsusi bacarıq və qabiliyyətləri ilə fərqlənən, həmçinin yay məktəblərinin iştirakçısı olmuş, liderlik keyfiyyətlərinə malik 350-yə yaxın uşaq iştirak edib.

# Türk xalqlarının yeni inkişaf strategiyası

Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeni ilə təltif edilib. Ali Orden Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən təqdim olunub. Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasının bununla bağlı qəbul etdiyi qərarda deyilir:

*"Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə zati-aliləri İlham*



*Əliyevin böyük şərəflə "Türk-Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir".*

Orden təqdim edilərkən R.T.Ərdoğanın Prezident İlham Əliyevə Müzəffər Ali Baş Komandan deyə müraciət etməsi hər bir azərbaycanlının qəlbində fərəh və qürur hissi yaratdı.

Hələ Ümummilli Liderimiz Heydər Əliyevin 1990-cı illərin əvvəllərində ifadə etdiyi "Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik" fikirləri türk xalqlarının gələcək inkişaf strategiyasının leytmotivinə çevrildi. Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin gələcək inkişaf proqramını verərək aşağıdakı istiqamətlərdə birgə fəaliyyətin perspektivlərini müəyyənləşdirmişdir:

Türk xalqlarının iqtisadi, siyasi problemlərinin həlli məsələlərində türk dünyasının imkanlarından səmərəli istifadə etmək;

Türk xalqlarının inteqrasiyasının intensivliyini təmin etmək;

Türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və beynəlxalq birlik qarşısında ümumi mövqe nümayiş etdirmək.

Heydər Əliyevin məqsədi türk xalqlarını vahid təsisat altında birləşdirmək idi. Bu arzu cənab İlham Əliyevin gərgin fəaliyyəti ilə gerçəkləşdi. Türk Dövlətləri Təşkilatının gələcəkdə dünyanın siyasi səhnəsində mühüm güc mərkəzlərindən birinə çevriləcəyi perspektivinə inanmamaq mümkün deyil.

Türk dövlətlərinin bir təsisat ətrafında birləşdirilməsi ideyası qədim ideoloji köklərə malikdir. Hələ əsrin əvvəllərində türk dünyasının nəhəng fikir adamları İsmayıl bəy Qaspralı, Əli bəy Huseynzadə, Sədri Maksudi, Yusif bəy Akçuralı, Əhməd bəy Ağaoğlu və başqaları tərəfindən bu ideyalar inkişaf etdirilmiş və bütün türk coğrafiyasını əhatə etmişdir. Sovetlər dönəmində isə Turançılıq və panturkizm ideyalarının daşıyıcısı olduqları üçün on minlərlə ziyalılar təqib edilmiş, repressiyaya məruz qalmış, qətlə yetirilmiş və sürgün edilmişdir. Lakin bu ideyalar hər bir türk övladının qəlbində yaşamışdır. Sovetlər birliyində yaşayan türk xalqları müstəqillik əldə etdikdən sonra artıq bu ideyalar siyasi-mənəvi, iqtisadi-sosial kontekstdə gerçəkləşmə istiqaməti aldı. Türk xalqlarının siyasi, iqtisadi, mənəvi gücünün bir təsisat altında birləşdirilməsi müasir tariximizin bir parçası olmaqla şahidlik etdiyimiz gerçəkliklərdir.

Türk Dövlətləri Təşkilatının formalaşması vaxtilə türkdilli ölkələrin zirvə toplantıları çərçivəsində inkişaf etməklə başlamışdır. Sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adlı qurumun yaradılması ideyası ilk dəfə 2006-cı ildə Qazaxıstanın sabiq Prezidenti Nursultan Nazarbayev tərəfindən təklif edilmişdir.

Bu ideyanın gerçəkləşməsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin müstəsna xidmətləri danılmazdır. Məhz sözügedən qurumun təsis edilməsi ilə bağlı ilk toplantının Azərbaycanın qədim yaşayış məskənlərindən olan Naxçıvan şəhərində keçirilməsi də təsadüfi deyil. Yaxın tariximizə nəzər salaq: 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlətlərinin iştirakı ilə tarixi bir addım atıldı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi imzalandı. Türk dünyasının və türk xalqlarının inteqrasiyasının təmin olunmasında bu qurumun təsis edilməsi çox böyük addım oldu. Saziş Azərbaycan Respublikasının parlamenti tərəfindən təsdiq edilərək şuraya beynəlxalq müqavilə statusu qazandırdı.

"Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında" Naxçıvan Sazişinin preambula hissəsində birgə fəaliyyətin əsas aspektləri öz əksini tapır. Sənəddə qeyd edilir ki, *siyasi çoxqütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsini arzulayaraq, ümumi qurum çərçivəsində qarşılıqlı əlaqənin dövlətlər və onların xalqları arasında xoş qonşuluq, vahidləşmə və əməkdaşlıq üçün geniş potensialdan faydalanmağa şərait yaratdığını hesab edərək, Türkdilli dövlətlərin başçılarının Zirvə Toplantısında təsdiqini tapmış qarşılıqlı etimad, qarşılıqlı fayda, bərabərlik ruhu, qarşılıqlı məsləhətləşmələr və ümumi inkişafa yönəlmiş niyyətlərdən çıxış edərək, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normalarına, o cümlədən suveren bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, xoş qonşuluq və dostluq münasibətlərinin inkişafının qorunması və dövlətlər arasında əməkdaşlıq prinsiplərinə sadiqliklərini əsas tuturlar.*

Sənədin preambula hissəsində vurğulandığı kimi, qurulan bu təşkilat özünün əsas fəaliyyətini beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə uyğun müəyyənləşdirmişdir. Qurumun məqsəd və vəzifələrinə gəlincə, sözügedən sazişin 2-ci maddəsində qarşılıqlı maraq doğuran xarici siyasət məsələləri, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində və beynəlxalq forumlardakı məsələlər üzrə ümumi yanaşmanın araşdırılması;

beynəlxalq terrorizm, separatçılıq, ekstremizm, insan alveri, narkobiznesə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə nəzarət üzrə beynəlxalq siyasətə yardım göstərilməsi;

siyasi, ticari-iqtisadi, hüquq mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi;

əmtəələrin, kapitalın, xidmət və texnologiyaların hərəkətinin asanlaşdırılması, maliyyə və bank əməliyyatlarının sadələşdirilməsi məqsədilə ticarət, investisiyalar, gömrük və tranzit prosedurlarının gələcəkdə sadələşdirilməsi üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur.

Göründüyü kimi, qurum öz ətrafında birləşdirdiyi dövlətlərin ümumi məqsədlər naminə bütün spektrlərdə istisnasız olaraq beynəlxalq regional fəaliyyətlərini təşviq edir.

Həmçinin qurumun 22 avqust 2012-ci ildə Bişkekdə təşkil olunan II Zirvə görüşündə ayrıca bayrağının qəbul edilməsi də təşkilatın uzunmüddətli perspektivdə fəaliyyətinin göstəricilərindəndir.

Qurumun üzvlərinin sıraları da artmışdır. Vaxtilə Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə dövlətləri tərəfindən təsis edilmiş bu quruma artıq Özbəkistan, Türkmənistan və Macarıstan da qoşulmaqla üzv dövlətlərin sayı 7-ə çatmışdır. Üzv dövlətlərin əhalisinin sayı 150 milyondan artıq, ərazisi 4 milyon kvadratkilometri əhatə edir.

Hətta türkdilli olmayan xalqlar və dövlətlər tərəfindən bu quruma üzv olmaqla bağlı fikirlər səsləndirilməsi bu təsisatın gələcəkdə böyük bir güc mərkəzinə çevrilməsi perspektivindən xəbər verir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi isə siyasi əhəmiyyət daşıyır. Bir məsələni də qeyd etmək lazimdir ki, Türk Dövlətləri Təşkilatının üzvü olan dövlətlərin hər birinin digərləri ilə müxtəlif sahədə ikitərəfli münasibətləri mövcuddur. Lakin bu dövlətlərin bir təsisat altında birləşdirliməsi onların ümumtürk xalqlarının müxtəlif istiqamətlərdə birgə inkişaf strategiyasının müəyyən olunmasına səbəb olacaqdır.

Türk Dövlətləri Şurasının ilk təsis toplantısının məhz Naxçıvanda keçirilməsi də rəmzi xarakter daşıyırdı. Naxçıvan Muxtar Respublikası Türkiyə-Azərbaycan münasibətlərində Qars müqaviləsi kontekstində xüsusi əhəmiyyət daşıdığı kimi, Ali Baş Komandan cənab İlham Əliyevin Ali Orden aldığı son toplantı da təsadüfi deyil. Bu toplantı Türkiyədə - müstəqlillik və demokratiya adasında keçirilmişdir. Həmin mərasimdə çıxış edən Prezident İlham Əliyev qurumun təsis toplantısındakı çıxışına istinad edir. Bu yaddaş xatırlatması təsadüfi xarakter daşımır. Cənab Prezident tarixi yaddaşı bir daha təzələyərək bu təşkilatın üzunmüddətli məqsədlər üçün qurulduğunu vurğulayır. Həmin toplantıda Prezident İlham Əliyevin çıxışını xatırlayaq.

İlham Əliyev 3 oktyabr 2009-cu il tarixdə qurumun Naxçıvanda keçirilən təsis yığıncağında türk xalqlarının ortaq dəyərlərindən danışaraq bildirir: *"Biz beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. BMT-də, İslam Konfransı Təşkilatında, ATƏT-də və digər təşkilatlarda bizim ölkələrimiz bir-birinə həmişə dəstək verir və bu, belə də olmalıdır. Çünki bizi müştərək tarix birləşdirir, tarixi-mədəni köklər birləşdirir. Dünən bütün türkdilli ölkələrin istedadını və incəsənətini təmsil edən konsertdə səslənən mahnılar bir daha onu göstərir ki, bizim xalqlarımız bir-birinə nə qədər yaxındır. Biz öz işimizi bu möhkəm təməl üzərində qururuq. Bizim birliyimiz təkcə ölkələrimizi gücləndirmir, bizim birliyimiz böyük mənada regional əməkdaşlığın da çox vacib amilidir".*

Həmçinin Prezident İlham Əliyev ilk toplantıda əməkdaşlığın istiqamətlərini müəyyən edərək bu fəaliyyətin spektrlərini göstərir və əməkdaşlıq istiqamətlərini dörd kateqoriyaya ayırır:

1) İqtisadi və neft-qaz sənayesi üzrə,
2) Beynəlxalq münasibətlər üzrə,
3) Humanitar-mədəni məsələlər üzrə,
4) Nəqliyyat-logistika məsələləri üzrə.

Göründüyü kimi, bu kateqoriyalar iqtisadi və siyasi münasibətlərin bütün spektrlərini əhatə edir. Prezident İlham Əliyevin ilk toplantıda strateji olaraq səsləndirdiyi fikirlərin artıq bir çoxu gerçəkləşib. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin reallaşması, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi və TÜRKSOY təşkilatının fəaliyyətini buna misal çəkmək olar. Türk xalqlarının mədəni inteqrasiyasında bu qurumun böyük rolu danılmazdır.

Onu da qeyd edək ki, üzv dövlətlərin 4-dən 7-yə qalxması, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Türk Dövlətləri Təşkilatına çevrilməsi, həmçinin "Türk dünyasına baxış - 2040" sənədinin qəbul edilməsi bu qurumun uzunmüddətli perspektivə hesablandığının göstəricisidir.

Bu günlərdə Azərbaycanın dövlət sərhədində erməni təxribatlarının intensiv şəkil alması da türk dövlətlərinin birgə fəaliyyətindən və inteqrasiyasından narahat olan ermənilərin və onların havadarlarının isterikasının bir nümunəsidir.

Dünyanın siyasi və iqtisadi sferasında böyük potensiala malik olan türk xalqlarının gələcək strategiyasının müəyyənləşdirlməsində Türk Dövlətləri Təşkilatının müstəsna rol oynayacağına böyük ümidlərlə "Tanrı türkü qorusun" deyirik!

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# Xilaskar lider

Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi türk birliyinin böyük etimadı, diqqəti və məhəbbətidir. Şanlı Zəfərlə yekunlaşan 44 günlük Vətən müharibəsi 30 il əsarət və işğalda qalmış torpaqlarımızın həsrətinə son qoydu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dövlətimizə rəhbərlik etdiyi ilk gündən mütəşəkkil diplomatiya, informasiya, beynəlxalq kürsülərdə apardığı mübarizə, ordunun müasirləşərək güclənməsinə olan böyük diqqət Qələbəmizi - Azərbaycanın ərazi bütövlüyünü təmin etdi.

Şuşa şəhəri tarixən Azərbaycanın mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərara görə Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olan Şuşanın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Prezident İlham Əliyevin 7 may 2021-ci ildə Şuşa şəhərini Azərbaycanın Mədəniyyət Paytaxtı elan etməsi şanlı tariximizdə böyük hadisə sayılır.

Mürəkkəb və çətin şəraitdə hərbi meydanda, siyasi arenada, informasiya müharibəsində sarsılmaz iradə, güclü qətiyyət, rəşadətli ordunun və qəhrəman oğulların misilsiz şücaətilə qazanılmış Zəfərin birinci ildönümünü - Zəfər gününü böyük sevinclə, fəxrlə, qürurla, minnətdarlıqla qeyd etdik. Bu Zəfər türk dünyasının qiymətləndirdiyi, sevindiyi, dəstək olduğu şanlı Qələbədir. Ədaləti yorulmadan müdafiə edən, təşəbbüskar və hər bir məsələyə böyük diqqətlə yanaşan Prezident İlham Əliyevin uğurları türk xalqlarının böyük sevincinə səbəb oldu. Müharibənin ilk saatlarından başlayaraq son dəqiqələrinə qədər qardaş Türkiyənin göstərdiyi dəstək və mənəvi dayaqlar indi də tikinti-bərpa və quruculuq işlərində davam etdirilir. İyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad olunan Şuşa şəhərinə tarixi səfər edərək Azərbaycan üçün çox önəmli bir zamanda - Milli Qurtuluş Günündə, Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsini Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə imzaladı.

"Şuşa Bəyannaməsi" müstəsna siyasi və tarixi əhəmiyyətə malikdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətləri bununla öz zirvəsinə yüksəldi və yeni bir mərhələyə qədəm qoydu. Bu tarixi sənəd iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini bundan sonra da artıracaq.

Bu gün Türkiyənin bir çox şirkətləri işğaldan azad olunmuş ərazilərdə çox önəmli infrastruktur layihələrində çalışırlar. Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün ən çox dəstək verən ölkə Türkiyədir. Körpülər, tikililər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları - bütün bu işlərdə Türkiyə şirkətləri fəal iştirak edirlər.

1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur. Bu gün nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə bu coğrafiya yenidən birləşir. Xalqlarımız arasında birlik, qardaşlıq gündən-günə böyük coğrafiyanı əhatə edir. Türkiyənin gücünü, siyasi, iqtisadi, hərbi qüdrətini indi dünyada bilməyən yoxdur. Bu gün türk dövlətləri üçün möhkəm zəmin var, möhkəm təməl var. Bu, ortaq köklərimiz, dilimiz, dinimiz və ortaq maraqlarımızdır.

Prezident İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi isə türk birliyinin böyük etimadı, diqqəti və məhəbbətidir. Qarabağın azad edilməsində göstərilən böyük səylər və türk birliyinin güclənməsi işinə töhfələrinə görə təltifi Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan təqdim edərək bildirmişdir ki, "Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün müddətində son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır. Vətən müharibəsi nəticəsində illərdir tətbiq olunmayan BMT Təhlükəsizlik Şurasının qətnamələri həyata keçirilmişdir. Azərbaycan bu yolla beynəlxalq ictimaiyyətin yaddaşına ədalət mesajını həkk etmişdir. Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi türk dünyasının birliyini və bərabərliyini genişləndirmişdir. Qarabağın azadlığının rəmzi olan "Xarıbülbül" türk dünyası üçün Zəferin müjdəçisi olmuşdur. Qarabağ Zəfəri ilə təkcə işğal altındakı torpaqlar azad edilməyib, eyni zamanda bölgəmizdə həsrətini çəkdiyimiz davamlı sülh, sabitlik və əməkdaşlığa gedən yolun da önü açılıb".

Türk Dünyasının Ali Ordeninin təqdim etməkdən dərin məmnunluq duyan Türkiyə Prezidenti azadlıq yolunda şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızı rəhmət və ehtiramla yad etdi.

Prezident İlham Əliyev bildirdi ki, bu ali mükafat türk dövlətləri tərəfindən işinə və fəaliyyətinə verilən çox yüksək qiymətdir və bütün Azərbaycan xalqına verilmiş mükafatdır.

Türkiyə ilə Azərbaycan arasında hər zaman dostluq, qardaşlıq, geniş əməkdaşlıq əlaqələri olmuş, bu əlaqələrin daim inkişaf etməsi üçün hər iki tərəf böyük səylər göstərmişdir. Yalnız iki dost, qardaş türk dövləti arasında məhdudlaşmayan münasibətlər əslində bütün türk dünyasını əhatə edir. Bu gün Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan olmaqla, ümumtürk birliyinin yaranması türkdilli dövlətlər arasında beynəlxalq münasibətlərin bütün sahələrində müstəqil əlaqələrin qurulmasına, türkdilli dövlətlərin əməkdaşlığına, inkişafına geniş imkanlar açır.

Prezident İlham Əliyev ümumtürk birliyinin möhkəmləndirilməsi xəttini xarici siyasətdə mühüm istiqamətlərdən biri kimi müəyyənləşdirərək, təkcə Türkiyə ilə deyil, Orta Asiyanın türkdilli dövlətləri ilə də münasibətləri gücləndirmək xəttinə üstünlük verir. Dövlət başçısı türkdilli xalqların oxşar milli irsinə, ülvi və pak dəyərlərinə, mental xüsusiyyətlərinə həm də ümumi müqaviməti və səfərbərliyi təmin edən güclü ideoloji-siyasi təsir vasitəsi kimi yanaşır.

Azərbaycan Prezidentinin fəaliyyətini yaxından izləyən hər kəs təsdiqləyə bilər ki, bu gün ölkəmiz türk dövlətlərinin inteqrasiyası prosesinin sadəcə iştirakçısı deyil, həm də ən fəal təşəbbüskarlarındandır. Bütün həyatı boyu türkdilli xalqların milli-mənəvi dəyərlər sisteminin müdafiəsində dayanmış Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin fəaliyyətində dünya siyasətinə təsir imkanları güclü olan türkdilli dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığı genişləndirmək, inkişaf etdirmək, vahid ideya və məqsədlər uğrunda mübarizə aparmaq, eyni mövqe nümayiş etdirmək, erməni lobbisinə qarşı mütəşəkkil mübarizəyə qoşulmaq ən çox diqqət yetirilən məsələlərdir.

Prezident İlham Əliyev avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günlərinin açılış mərasimində 2022-ci ildə Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd etmək planını elan etdi. Qarabağ xanlığının mərkəzi olan Şuşanın yubileyinin keçirilməsi Zəfər tariximizdə, həm də qədim tarixi ənənələri olan türk dünyasında mühüm hadisələrdən biri olacaq.

Əziz Prezidentimizi şanlı Zəfər günü və Türk Dünyasının Ali Ordeni ilə təltif olunması münasibəti ilə şuşalılar adından təbrik edirəm. Bu gün Şuşa azaddır. İndi Şuşa məscidində azan, Cıdır düzündə muğam, Vaqifin məqbərəsində şeirlər səslənir, bulaqlardan su gəlir, məscidlər, abidələr bərpa olunur, geniş bərpa-tikinti və quruculuq işləri aparılır, bayram günlərində atəşfəşanlıq işıq saçır.

Azərbaycan tarixində misli görünməmiş uğurlara qızıl hərflərlə imza atan Xilaskar Prezidentə, ədaləti yorulmadan müdafiə edən Rəhbərə möhtəşəm işlərində cansağlığı, uğurlar arzu edirəm.

***Bayram SƏFƏROV,***
***Şuşa Rayon İcra Hakimiyyətinin başçısı***

# İqtisadi qüdrətin uğur formulu



## Zəfər büdcəsi 2022-ci ildə qarşıya qoyulan strateji vəzifələrin yerinə yetirilməsini təmin edəcək

*Əvvəli 1-ci səh.*

2021-ci ilin ötən 9 ayında iqtisadi inkişaf tempi 4,8 faizə çatıb və bu o deməkdir ki, iqtisadiyyatımız böhran dövrünü arxada qoyaraq yeni inkişaf yolunda inamla irəliləyir. Bütün bunların nəticəsində yüksəliş, 2022-ci ilin maliyyə ili üçünsə dayanıqlı iqtisadi təminat yaranıb. Bütün bu ssenarilərə əsasən hazırlanmış 2022-ci ilin dövlət büdcəsi layihəsi Azərbaycanın inkişafı üçün güclü zəmin formalaşdırır.

2022-ci il üzrə büdcə siyasətinin istiqamət və hədəfləri İlham Əliyevin hazırladığı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində müəyyən edilmiş prioritetlər və onların həyata keçirilməsi üçün qarşıya qoyulmuş strateji məqsədlər nəzərə alınmaqla tərtib olunub. Büdcənin gəlir və xərcləri də təsdiq edir ki, dövlətin ali maliyyə sənədi strateji inkişaf hədəflərinə, iqtisadi siyasətə və qarşıda duran çağırışları dəf etməyə xidmət etmək iqtidarında olacaq.

### Maaşlar, pensiyalar, təqaüdlər artacaq

Gələn ilin dövlət büdcəsi hazırlanarkən yenə də sənədin sosialyönümlü olmasına xüsusi diqqət yetirilib. Yəni 2022-ci ilin büdcəsi də ötən illərin maliyyə sənədi kimi sosialyönümlüdür.

Belə ki, büdcə layihəsi dövlətin əsas funksiyalarının, o cümlədən müdafiə və təhlükəsizlik, sosial təminat, səhiyyə, təhsil, dövlət borcu, prioritet dövlət proqramları və layihələri üzrə maliyyələşdirmənin davam etdirilməsi, əhalinin sosial rifahının qorunmasına yönəlmiş tədbirlərin və iqtisadi artımın dəstəklənməsinə güclü maliyyə təminatı yaradır.

Əhalinin, xüsusilə də həssas qrupların, müharibə veteranlarının, əlillərin və şəhid ailələrinin sosial təminatı üzrə həyata keçirilən dövlət siyasətinin maliyyələşdirilməsinə xüsusi əhəmiyyət veriləcək. Büdcə gəlirlərinin artırılması nəticəsində cəlb ediləcək əlavə vəsaitlərin mühüm qismi əhalinin sosial rifahının yaxşılaşdırılmasına, yardıma ehtiyacı olan vətəndaşlara hədəflənmiş sosial proqramların həyata keçirilməsinə yönəldiləcək.

### Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma və inkişaf dövrü

Sənəddə həmçinin işğaldan azad olunmuş ərazilərin bərpası, yenidən qurulması və ölkə iqtisadiyyatına reinteqrasiyası məsələsi də yer alıb.

Yəni şanlı Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurda başlanmış işlərin davam etdirilməsi, işğaldan azad edilmiş bütün ərazilərdə Azərbaycan Ordusunun, Sərhəd Qoşunlarının, daxili işlər, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsi, mina təmizləmə tədbirlərinin təşkil olunması, habelə su, elektrik enerjisi, qaz təchizatı, rabitənin bərpası, həmçinin yol infrastrukturunun qurulması ilə əlaqədar işlərin icrası, əhalinin məskunlaşdırılması və onların həyat şəraitinin bərpası, dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin həyata keçirilməsi kimi tədbirlər üçün büdcədən 2,2 milyard manat vəsaitin ayrılması qərara alınıb.

Bütün bunlar bir daha təsdiq edir ki, azad edilmiş ərazilərimizin vahid konsepsiya əsasında bərpası ölkənin iqtisadi potensialının genişlənməsinə səbəb olacaq. Bu ərazilərin reinteqrasiyası ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək, iqtisadi artıma səbəb olacaq. Qarabağın bərpa prosesi çoxşaxəli olduğu üçün nəinki həmin ərazilərin, ümumilikdə ölkə iqtisadiyyatının bir çox sektorlarının inkişafı üçün yeni imkanlar yaranacaq.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. 2021-ci ildə görülən işlər onu deməyə əsas verir ki, Azərbaycan 2022-ci ildə də yeni-yeni uğurlara nail olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***




# TDT-nin rəqəmsal dünyaya baxışı Qarabağdan keçir

## Təşkilatın VIII Zirvə Görüşündə günün digər vacib iqtisadi məsələlərindən də bəhs olundu

*Əvvəli 1-ci səh.*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Beynəlxalq kombinə edilmiş yük daşımaları haqqında Saziş"in ən qısa zamanda imzalanmasının vacib olduğunu qeyd edərək dedi: "Beləliklə, Xəzərdən keçən Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi başda olmaqla aramızdakı bütün yolları bu coğrafiyanın əsas arteriyalarına çevirə bilərik. Azərbaycan-Naxçıvan bağlantısı da bu mənada həyati əhəmiyyət daşıyır".

Zirvə görüşünün "Rəqəmsal dövrdə "yaşıl texnologiya"lar və "ağıllı şəhər"lər" mövzusuna həsr olunduğunu deyən Türkiyə Prezidenti bu baxımdan Zəngilanda görülən quruculuq işlərindən bəhs etdi. "Ağıllı şəhər"ləşmə sahəsində işğaldan azad edilən Zəngilanda başladılan təşəbbüs, Türkistanın inkişafı, Ahaldakı intensiv fəaliyyətlər, Budapeştdə görülən işlər, Qırğızıstanda və Özbəkistandakı fəaliyyətlər təqdirəlayiqdir".

İqtisadçı ekspertlər belə hesab edir ki, TDT-nin iqtisadi əsasları onun sosial və mədəni təməlləri ilə vəhdət təşkil edir. Türkdilli xalqların dil ümumiliyi, tarixi-coğrafi məkan, əxlaq birliyi, geoiqtisadi bağlılıqları kimi zəruri amilləri mental dəyərlər bazasında qloballaşma və regionlaşma çağırışlarını daha da aktuallaşdırır. Beləliklə, TDT regionda və dünyada sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsinə səmtlənən qurum kimi uğurlu fəaliyyətinə start verdi.

Azərbaycanda və beynəlxalq miqyasda dərin araşdırmaları ilə getdikcə nüfuzu artan beyin mərkəzi - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) növbəti araşdırmasında Türk Dövlətləri Təşkilatının geoiqtisadi vəziyyəti barədə yazır ki, 6 müstəqil türk dövləti birlikdə 4,7 milyon kvadratkilometr ərazini əhatə edir. Müqaisə üçün qeyd edək ki, Avropa Birliyi ölkələrinin ərazisi ümumilikdə 4 milyon kvadratkilometrdir. Həmçinin 6 müstəqil Türk dövləti birlikdə ümumi dünya əhalisinin 2 faizindən çoxunu təşkil edir. Araşdırmada türkdilli xalqların iqtisadi göstəriciləri də nəzərdən keçirilir: "ÜDM alıcılıq qabiliyyəti pariteti ilə hesablamalara nəzər yetirsək, türkdilli müstəqil dövlətlər birlikdə 3,4 trilyon dollardan daha çox statistik göstəriciyə sahibdir. Belə ki, dünya üzrə ÜDM alıcılıq qabiliyyəti pariteti 132,6 trilyon dollar ətrafındadır. Türk dünyası ölkələrinin payı bu nisbətdə 2,6 faiz edir".

İİTKM-in eksperti Ayhan Satıcı şərhində qeyd edir ki, statistik göstəricilərə əsasən, Çin və Avropa ölkələri arasındakı ticarət dövriyyəsi günlük 1 milyard ABŞ dollarının üzərindədir: "Türk dünyası ölkələrinin bu mühüm ticarət yolu üzərində yerləşməsi Türk Dövlətləri Təşkilatının regionda iqtisadi gücə çevrilməsinə şərait yaradır. Belə ki, TDT-yə üzv ölkələrin dünya iqtisadiyyatındakı ümumi ticarət dövriyyəsi 536 milyard ABŞ dollarını təşkil edir və bu rəqəm 2019-cu ilin dünya üzrə mal ticarət dövriyyəsi (Merchandise Trade) ilə müqayisədə 2,8 faizdən çoxdur".

TDT-nin təbii ehtiyatları əsasən neft yataqları, təbii qaz, kömür, dəmir filizi və s. ilə zəngindir. Türk dünyasının müstəqil ölkələrinin ümumi neft ehtiyatının həcmi 35,8 milyard barel ətrafındadır. Qaz ehtiyatları ilə isə Azərbaycan, Qazaxıstan, Türkmənistan və Özbəkistan zəngindir. Bu dörd dövlətin ümumi qaz ehtiyatları 19,2 trilyon kub metr olub, ümumi dünya təbii qaz ehtiyatının 10,2 faizindən çoxdur. Bu cox ciddi rəqəmdir. Beləliklə, Türk Dövlətləri Təşkilatı dünya iqtisadiyyatının ən mühüm sahələrində əməkdaşlıqlarını genişləndirə bilər. Məhz bu səbəbdən TDT təkilatının ilk görüşü ümumilikdə iqtisadi əməkdaşlıq mövzusuna həsr edilmişdir.

Faktiki olaraq onu da qeyd etmək lazımdır ki, bu günə TDT-yə daxil olan dövlətlər arasında ən ciddi əlaqələr Türkiyə və Azərbaycan respublikaları arasında qurulmuşdur. VIII Zirvə Görüşündə Azərbaycan Prezidenti bu əleqələrdən ətraflı danışdı, işğaldan azad edilmiş ərazilərin bərpasında bizə ən çox dəstək verən dövlətin yenə də qardaş Türkiyə olduğunu bildirdi: "Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, - körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları, - bütün bu işlərdə fəal iştirak edirlər".

Füzuli Hava Limanını Azərbaycan şirkətləri ilə bərabər, 12 türk şirkəti də tikmişdir. Türkiyə şirkətləri Zəngilan Hava Limanının inşasında və digər layihələrin icrasında da iştirak edəcəklər. Füzuli rayonunda Özbəkistan büdcəsinin vəsaiti hesabına böyük məktəbin inşası nəzərdə tutulur. İkinci Qarabağ savaşında Azərbaycanın qələbəsi TDT-nin fəaliyyətini bütün istiqamətlərdə dərinləşdirən ciddi amildir. Yeganə problem Ermənistanın sülh proseslərinə qoşulmaması ilə bağlıdır ki, buna da Prezident İlham Əliyev belə münasibət bildirdi: "Ümid edirəm, öz işğalçılıq siyasətinə görə məğlub vəziyyətdə olan Ermənistan da gec-tez anlayacaq ki, heç bir ölkəyə ərazi iddiası onlara xeyir və şərəf gətirməyəcək. Ümid edirəm ki, yaxın gələcəkdə Ermənistanın həm Türkiyəyə, həm Azərbaycana ərazi iddialarına son qoyulacaq. Əks təqdirdə onlar daha da pis duruma düşə bilərlər. Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir və bu gün bu layihənin gerçəkləşməsi istiqamətində fəal işlər gedir".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Naftalanda YAP-ın 29-cu ildönümü qeyd edilib

Naftalanda YAP-ın təsis edilməsinin 29-cu ildönümü münasibətilə "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" mövzusunda tədbir keçirilmişdir.



Şəhər İcra Hakimiyyəti nümayəndələrinin, idarə müəssisə və təşkilat rəhbərlərinin, eləcə də partiya fəallarının iştirak etdikləri tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin şəhər mərkəzində ucaldılmış abidəsi ziyarət olunmuş, önünə gül dəstələri qoyulmuşdur. Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində Ümummilli Liderin şərəfli ömür yolunu, ölkəmizin tərəqqisi naminə göstərdiyi xidmətləri əks etdirən fotosərgi ilə tanış olmuşlar.

Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə vətənimizin azadlığı uğrunda canından keçmiş şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edildikdən sonra Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Vuqar Novruzov məruzə ilə çıxış edərək diqqətə çatdırmışdır ki, bu gün öz ətrafında 800 minə yaxın insanı birləşdirməklə YAP nəinki ölkənin, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilmişdir. Söz yox ki, bu uğur Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş sarsılmaz təməlin və Müzəffər Ali Baş Komandan, partiya sədri cənab İlham Əliyevin apardığı məqsədyönlü və müdrik siyasətin nəticəsidir. Həmçinin qeyd edilmişdir ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın uğurlu hərbi strategiyası, Müzəffər Azərbaycan Ordusunun şanlı qələbəsi onu bir daha sübut etdi ki, dövlət başçısının apardığı siyasətin heç bir alternativi yoxdur.

Digər çıxış edənlər qeyd etmişlər ki, zamanın tələbi, xalqın istəyi ilə yaranan və qısa müddətdə ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının bütün uğurlarının arxasında xalqın inamı və bu inamdan irəli gələn dəstəyi dayanır.

Tədbirin sonunda YAP sıralarına daxil olan bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bu ilin 10 ayında 3 033 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin 10 ayı ərzində ümumilikdə 3 033 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilib.




Ötən ildən ödənişi davam edənlər də daxil olmaqla 12 164 nəfərə bu müddət ərzində sığorta ödənişi həyata keçirilib.

İşsizlikdən sığorta ödənişi dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi, işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək müqaviləsinə xitam verilmiş şəxslər - ən azı 1 il sığorta stajı olduqda təyin edilir. Əmək müqaviləsinin müddətinin bitməsi ilə əlaqədar əmək müqaviləsinə xitam verilmiş şəxslərə isə bu ödənişin təyinatı işsizliyin başlanmasından əvvəlki ardıcıl gələn 36 ay ərzində müddətli əmək müqaviləsi üzrə ən azı 35 ay sığorta stajı olduqda həyata keçirilir.

Ötən il "İşsizlikdən sığorta haqqında" qanuna edilən dəyişikliklə sığorta ödənişinin verilməsi qaydaları sadələşdirilib və sığorta məbləğinə artım edilib. Həmin yenilik işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə və işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişlənməsinə imkan verib.

# Müstəqilliyimizin ən böyük amnistiya aktı



*Əvvəli 1-ci səh.*

Bu sırada cəzasının müəyyən bir hissəsini çəkən və törətdiyi əməldən peşmançılıq keçirən məhkum olunmuş şəxslərin əfv edilməsi, bağışlanması, onlara yeni şans verilməsi artıq uzun illərdir ki, ənənəyə çevrilib. Bu ənənənin təməlini qoyan Ulu Öndər Heydər Əliyev əfvetmə institutunu da yaradıb, onun təşəbbüsləri ilə bu sahədə bir sıra tədbirlər həyata keçirilib.

Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanıb, həmçinin 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan edilib. Bu mənada Ulu Öndər Heydər Əliyevin şəxsiyyətini dahi insan, əsl lider kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri də onun humanistliyi, cinayət törətmiş və bu əməlindən səmimi peşmançılıq keçirən şəxsləri bağışlaması idi.

Təbii ki, cinayət cəzasız qalmamalıdır. Hər bir cinayətin layiqli cəzası olmalıdır. Cəza hüququnun reallaşdırılmasında ədalətə söykənmək də Azərbaycanda Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətinin əsas qayələrindən biridir.

Onu da qeyd edək ki, Azərbaycanda bərqərar olan humanizm siyasətinin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü də aradan qaldırılıb. Respublikamızın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşüb. Əvvəlcə 1993-cü ildə ölüm hökmü üzərində moratorium qoyulub, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilib. Xatırladaq ki, cəmi bir il hakimiyyətdə olmalarına baxmayaraq, AXC-Müsavat iqtidarı bir neçə nəfərə ölüm cəzası vermək üçün imkan tapmışdı.

### İlham Əliyev əfvetmə institutunun çevik fəaliyyətini təmin edib

Heydər Əliyevin əsasını qoyduğu humanizm ənənələri Ulu Öndərin adına layiq şəkildə davam etdirilməkdədir. Prezident İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edir, Ulu Öndərin əsasını qoyduğu bu ənənəni yaşadır və inkişaf etdirir. Dövlət başçısı əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib. Səmərəli fəaliyyəti ilə böyük nüfuz qazanmış əfvetmə və bağışlama institutu şəxsiyyətə inam və hörmət, insanpərvərlik ideyalarının cəmiyyətdə geniş yayılmasına kömək göstərir.

Törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə baglı müraciətləri daim nəzərə alınıb. Bundan irəli gələrək İlham Əliyevin imzaladığı əfv fərmanları ilə ailə vəziyyəti və həbsxanadakı davranışı nəzərə alınaraq neçə-neçə məhkum cəzasının çəkilməmiş hissəsindən tam və ya qismən azad edilib, cəzaları yüngülləşdirilib, minlərlə ailəyə sevinc bəxş edilib. Əfv fərmanlarında törətdiyi cinayət əməlindən səmimi peşmançılıq hissi keçirən məhkumların islah olunaraq layiqli vətəndaş kimi cəmiyyətə qovuşması, bir daha cinayət əməli törətməməsi əsas məqsəd kimi nəzərdə tutulub.

Xatırladaq ki, Milli Məclis 2007-ci ildə Ümummilli Lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş, 2009-cu ildə Novruz bayramı münasibətilə, 2013-cü ildə Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə və 2016-cı ildə 28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında qərarlar qəbul edib. Bütün bu amnistiya qərarlarının təşəbbüskarı isə Heydər Əliyev Fondunun prezidenti, o zaman Milli Məclisin deputatı olan Azərbaycanın Birinci-vitse prezidenti Mehriban xanım Əliyeva olub.

### Sonuncu amnistiya aktı genişmiqyaslı olması ilə seçilir

İndiyədək həyata keçirilən 11 amnistiya aktı 117 min 770 şəxsə şamil edilib. 8 Noyabr - Zəfər Günü münasibətilə elan olunan amnistiya aktı isə genişmiqyaslı olması ilə seçilir. Bu amnistiya aktı penitensiar xidmət üzrə 5800 məhkuma, probasiya xidməti üzrə isə 8800 nəfərə şamil edilib. Hazırkı amnistiyanın fərqi həm də ondan ibarətdir ki, bu akt qanuni qüvvəyə minməmiş hökmlərə və istintaq mərhələsində olan işlərə də aid edilib. Amnistiya aktının icrası aidiyyəti orqanlar tərəfindən dörd ayda başa çatdırılacaq.

Sonuncu amnistiya aktı dövlətimizin humanist siyasətinin növbəti təzahürüdür. Bu qərar Zəfər gününün birinci ildönümündə cəmiyyətimizin bayram əhvali-ruhiyyəsini daha da yüksəltdi, neçə-neçə ailəyə səadət, sevinc bəxş etdi. Amnistiya aktına əsasən cəzadan azad edilmiş şəxslər müasir Azərbaycan dövlətinin layiqli vətəndaşı olacaq, qanunlara hörmət ruhunda davranaraq Vətənə və xalqa sədaqətlə xidmət edəcəklər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Şəhid Orxan Cabbarov Quba Şəhidlər xiyabanında torpağa tapşırılıb






Dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun şəhid olan giziri Cabbarov Orxan Hətəm oğlu noyabrın 18-də Qubada dəfn olunub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhidin dəfn mərasimində şəhər icra hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, hərbçilər, ictimaiyyət nümayəndələri, rayon sakinləri iştirak ediblər.

Şəhid Orxan Cabbarov Quba rayonunun Davidoba kəndindəndir. Zəfərlə başa çatan Vətən müharibəsində Cəbrayıl və Füzuli cəbhələrində qəhrəmanlıqla döyüşüb. Göstərdiyi şücaətə görə 4 medalla təltif olunub.

Orxan Cabbarov Qubanın Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Mərasimdə yaylım atəşi açılıb, Azərbaycanın dövlət bayrağı şəhidin atasına təqdim olunub.

# Naxçıvanda şəhid ehtiramla qarşılanıb





Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan və Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi.

Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, işğal altındakı torpaqlarımız azad olundu. Lakin noyabrın 16-da Ermənistan dövlət sərhədində növbəti təxribat törədib. Ordumuz tərəfindən düşmən təxribatının qarşısı qətiyyətlə alınıb. Döyüş əməliyyatları zamanı 7 hərbi qulluqçumuz şəhidlik zirvəsinə yüksəlib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, Vətən müharibəsində göstərdiyi şücaətə görə Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuş şəhid leytenant Niftəliyev Ümüd Oruc oğlunun cənazəsi noyabrın 18-də muxtar respublikaya gətirilib.

Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı baş konsulu, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri və şəhidin ailə üzvləri tədbirdə iştirak ediblər.

Şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildirdilər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazəsinin önündən keçildi.

Şəhidin cənazəsi doğulduğu Nehrəm qəsəbəsinə yola salındı.

Ali Məclisin Sədri şəhidin ailə üzvləri ilə görüşərək, onlara başsağlığı verdi.

# Şəhid əsgər Murad Xəlilov dəfn olunub






Düşmən təxribatının qarşısını alarkən şəhid olmuş əsgər Xəlilov Murad Qalib oğlunun nəşi Şəmkir rayonuna gətirilib.

AZƏRTAC xəbər verir ki, Şəmkirin Çinarlı qəsəbəsində şəhidimizlə vida mərasimi keçirilib.

Vida mərasimindən sonra şəhidimiz Çinarlı qəbiristanlığında torpağa tapşırılıb. Dəfn mərasimində rayon icra hakimiyyətinin rəhbərliyi, Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, şəhər sakinləri və şəhidin hərbçi yoldaşları iştirak ediblər.

## Azərbaycanın müdafiə naziri Serbiyanın ölkəmizdə yeni təyin olunan səfiri ilə görüşüb



Noyabrın 18-də Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov Serbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Draqan Vladisavlyeviç ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Serbiya arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətindəki işlərində uğurlar arzulayıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının xüsusi rolu vurğulanaraq bir çox istiqamətlərdə olduğu kimi, hərbi sahədə də əlaqələrin uğurla davam etdirildiyi bildirilib.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən diplomat Azərbaycan-Serbiya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib. Səfir Vətən müharibəsində Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla bağlı qarşılıqlı təcrübə mübadiləsinin aparılmasını təklif edib.

Tərəflər ölkələrimiz arasındakı münasibətlər, bölgədəki hərbi-siyasi vəziyyət, eləcə də ikitərəfli hərbi əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

# Ermənistan silahlı qüvvələri Tovuz rayonu istiqamətindəki mövqelərimizi atəşə tutub

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 17-si saat 17:54-dən 22:52-dək Şəmşəddin rayonunun Çinarlı, Muğancıq kəndləri istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Muncuqlu, Ağbulaq, Qoşa, Koxanəbi və Əsrik Cırdaxan kəndləri istiqamətində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı atıcı silahlardan atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşı tərəf cavab atəşi ilə susdurulub.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri noyabrın 18-si saat 14:10-dan etibarən Şəmşəddin rayonunun Çinarlı kəndi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Koxanəbi kəndi istiqamətində yerləşən mövqelərini heç bir səbəb olmadan növbəti dəfə atıcı silahlardan intensiv atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cavab atəşi ilə qarşı tərəf susdurulub.

Azərbaycan Ordusunun şəxsi heyəti arasında itki yoxdur.

# Bakıda NATO-nun hərbi təhsil üzrə ekspertləri ilə işçi görüşü keçirilib

Azərbaycan Ordusunun hərbi təhsil sisteminin təlim-tədris sahələrinin inkişafına yardım üzrə NATO-Azərbaycan birgə fəaliyyət planına müvafiq olaraq müdafiə təhsilinin genişləndirilməsi proqramı çərçivəsində (DEEP) NATO-nun ekspert qrupu ilə Bakıda işçi görüşü keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Silahlı Qüvvələrin Hərbi Akademiyasında Müdafiə Nazirliyi və Alyansın hərbi təhsil mütəxəssisləri arasında keçirilən görüşdə Azərbaycan Ordusunda 2021-ci il ərzində hərbi təhsil sahəsində həyata keçirilən fəaliyyətlər müzakirə edilib. Həmçinin növbəti il üçün tədbirlərin planlaşdırılması və icrası məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb, yeni perspektivlər nəzərdən keçirilib, əməkdaşlıq planları təhlil edilib.

Sonra qonaqlar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar. Burada hərbi təhsil sisteminin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, hərbi təhsilin metodologiyasına dair bir sıra məsələlər müzakirə edilib, bu sahədə qazanılmış təcrübə üzrə qarşılıqlı brifinqlər təqdim olunub.

# Bakıda batut gimnastikası üzrə dünya çempionatının təntənəli açılış mərasimi olub







Noyabrın 18-də Bakıda batut gimnastikası üzrə dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, əvvəlcə iştirakçı ölkələrin paradı olub. Sonra idmançı, məşqçi və hakim heyətinin ədalət prinsiplərinə sadiq qalacaqlarına dair andiçmə mərasimi olub. İdmançıları Azərbaycan təmsilçisi Mixail Malkin təmsil edib.

Açılış mərasimində çıxış edən gənclər və idman naziri Fərid Qayıbov bu gün ölkəmizin müxtəlif idman növləri üzrə yarışların uğurlu təşkilatçısı kimi tanındığını deyib. Bildirib ki, bu tədbirlər arasında gimnastika yarışları xüsusi yer tutur. Azərbaycan batut gimnastikası üzrə dünya çempionatına ilk dəfə evsahibliyi etsə də, bu, gimnastika üzrə Bakıda keçirilən dördüncü dünya birinciliyidir.

Nazir bildirib ki, Azərbaycanda fəaliyyət göstərən müasir idman qurğularındakı şərait, təşkilatçılıq təcrübəsi və xalqımıza məxsus qonaqpərvərlik tədbir iştirakçıları tərəfindən yüksək qiymətləndirilir.

"Əziz idmançılar, bu yarış meydanı növbəti dörd gün ərzində sizin ixtiyarınızdadır. Buraya toplaşmış hər kəs - məşqçilər, hakimlər, Beynəlxalq Gimnastika Federasiyasının (FIG) rəsmiləri, Texniki Komitənin üzvləri sizin möhtəşəm çıxışlarınızı dəyərləndirməyə hazırdır. Hamınıza yarışlarda uğurlar arzulayıram. Bakıda keçirəcəyiniz hər bir günün maraqlı və xoş xatirələrlə dolu olacağına inanıram", - deyə nazir qeyd edib.

FIG-nin prezidenti Morinari Vatanabe Bakıda keçirilən batut gimnastikası üzrə 35-ci dünya çempionatında yeni ən yaxşı idmançıların yüksəlişini izləyəcəklərini vurğulayıb. O, dünya çempionatı üçün Bakıya yenidən səfər etməkdən məmnunluğunu bildirib. Bu möhtəşəm məkanda bir çox dünya çempionatlarının təşkil edildiyini, amma batut gimnastikası üzrə mundialın ilk dəfə keçirildiyini vurğulayan M.Vatanabe deyib: "Yarışı ərsəyə gətirmək üçün zəhmət çəkdiklərinə, bu böyük tədbir üçün bizə mükəmməl şərait yaratdıqlarına görə Azərbaycan Gimnastika Federasiyasındakı dostlarımıza təşəkkür etmək istəyirəm. Deyə bilərik ki, 2021-ci il tərəqqi ilidir. Üç ay əvvəl Olimpiya Oyunlarını keçirdik, indi isə dünya çempionatında iştirak edirik.

İki böyük çempionun yanımızda olması bizi çox qürurlandırır. Bunlar Kanadadan Karen Kokbern və Fransadan Devid Martindir. Onlar bu yarışın batut gimnastikası üzrə səfirləridirlər. Bütün yarış iştirakçılarına uğurlar arzulayıram və batut gimnastikası üzrə 35-ci dünya çempionatını açıq elan edirəm".

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış mərasiminə bədii hissə ilə yekun vurulub.

Noyabrın 21-dək davam edəcək dünya çempionatında 33 ölkədən 300-dək gimnast iştirak edir. Çempionatda gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili minibatut üzrə proqramlarda çıxış edəcəklər. Bundan əlavə, komanda çoxnövçülüyü, eləcə də hər proqram üzrə komanda hesabında qaliblər müəyyənləşəcək.

Ölkəmizdə bu növ üzrə daha əvvəl Avropa çempionatı və çoxsaylı dünya kubokları keçirilsə də, paytaxtımız havada pərvazlanan dünya ulduzlarını ilk dəfə belə bir irimiqyaslı yarışda Milli Gimnastika Arenasına toplayıb.

Yarışların ilk iki günündə təsnifat, sonuncu iki gündə isə finallar keçiriləcək. Qaydalara əsasən, bir iştirakçı bir neçə proqramda çıxış edə bilər.

## Azərbaycan Gimnastika Federasiyasının təşkilatçılığı ilə xeyriyyə aksiyası keçirilib




Azərbaycan Gimnastika Federasiyası (AGF) Bakının Binə qəsəbəsində yerləşən "Ümid yeri" uşaq sığınacağında xeyriyyə aksiyası keçirib.

AZƏRTAC xəbər verir ki, tədbir Bakıda keçirilən batut gimnastikası, ikili mini-batut və tamblinq üzrə 35-ci dünya çempionatına həsr olunub.

Xeyriyyə aksiyası çərçivəsində AGF-in əməkdaşları ilə birlikdə dünya çempionatının ulduz səfirləri - kanadalı Karen Kokbern və fransalı Devid Martin sığınacağı ziyarət ediblər.

Onlar uşaq sığınacağında yaradılan şəraitlə tanış olub, onun rəhbəri və müəssisənin əməkdaşları ilə söhbət ediblər.

Dünya çempionatının ulduz səfirləri "Ümid yeri" uşaq sığınacağının balaca sakinləri ilə görüşüb, onlarla söhbətləşiblər. Uşaqlar qonaqlar üçün tamaşa hazırlayıb, musiqi ifa ediblər.

Ulduz səfirlər və federasiyanın əməkdaşları balacalara hədiyyələr təqdim edib, onlarla xatirə şəkilləri çəkdiriblər.

## *Devid MARTİN:* "Bakıda batut gimnastikası üzrə dünya çempionatı yüksək səviyyədə təşkil olunub"

"Bakıda batut gimnastikası üzrə dünya çempionatı yüksək səviyyədə təşkil olunub. İdmançılar üçün hər cür şərait yaradılıb".

Bunu Bakıda keçirilən batut gimnastikası üzrə 35-ci dünya çempionatının Fransadan olan ulduz səfiri Devid Martin AZƏRTAC-a müsahibəsində deyib.

Ulduz səfir bildirib: "Milli Gimnastika Arenasında idmançıların hazırlığı üçün mükəmməl məşq meydançaları var. Yüksək təşkilatçılığa və qonaqpərvərliyə görə Azərbaycan Gimnastika Federasiyasına minnətdarlığımı bildirirəm. Arenada yarışları izləməkdən böyük zövq alıram".



# REGİONLAR









## Şirvan şəhəri yenidən regionun sənaye mərkəzinə çevrilir

İlin başa çatmasına sayılı günlər qalıb. Vidalaşmağa hazırlaşdığımız bu il ölkəmizin sənaye mərkəzlərindən olan Şirvan şəhəri üçün uğurludur. Aparılan tikinti-quruculuq və abadlıq işləri neftçilər, energetiklər, gənclər şəhəri kimi ad qazanmış Şirvanın simasını xeyli dəyişmişdir.

Boz dağın əhatəsində yerləşən bu şəhər haqqında söhbət açarkən onun uzaq keçmişini yada salmamaq olmur. Azərbaycanın iqtisadi coğrafiyasında özünə yer alan şəhərin tarixi başqa yaşayış məntəqələrindən fərqli olaraq, o qədər də qədim deyil. Ölkəmizin qərb istiqamətinə gedən avtomobil, dəmir yolları, habelə yaxınlıqdan axıb keçən Kür çayı bu yaşayış məkanının salınması üçün baza yaratmış, təməl olmuşdur. Burada 1950-ci ildə tapılan neft yataqları, ondan sonra tikilən elektrik stansiyası boz torpağı cana gətirmiş, yeni salınan yaşayış məskəni tez bir zamanda sürətlə inkişaf etmişdir. Burada yeni tikinti təşkilatları, sənaye müəssisələri yaradılmış, yaşayış evləri, ictimai binalar tikilmiş, qəsəbə böyümüş, bu gün də yerli əhalinin dediyi kimi, "Təzə şəhər" salınmışdır. Sənayenin sürətli inkişafı tez bir zamanda Əli Bayramlını (sovet dövründə belə adlanırdı) nəinki respublikamızda, hətta keçmiş SSRİ-də də tanıtmışdır. 1963-cü ildə ona respublika tabeliyində şəhər statusu verilmişdir. Ayrı-ayrı rayonlarımızdan, eyni zamanda Rusiyanın müxtəlif vilayətlərindən minlərlə gənc işləmək üçün buraya göndərilmişdir. Həmin gənclər istehsalatın müxtəlif sahələrində çalışmış, ailə həyatı quraraq talelərini birdəfəlik bu şəhərlə bağlamışlar.

Bu gün Şirvan yeni inkişaf dövrünü yaşayır. 2003-cü ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul olunan və bu gün də icrası davam edən regional inkişaf dövlət proqramları çərçivəsində Şirvan şəhərində Olimpiya İdman Kompleksi, Müalicə-Diaqnostika Mərkəzi, Bayraq Meydanı, Heydər Əliyev Mərkəzi, Gənclər evi, əlillər və şəhid ailələri üçün ümumilikdə 165 mənzil və 10 fərdi ev, Cənub Elektrik Stansiyası, Müdafiə Sənayesi Nazirliyinin "Telemexanika" və "Araz" zavodlarında xüsusi təyinatlı məhsullar istehsal edən 5 yeni bölmə, "Retro İnşaat" MMC-nin metaləritmə, sement, kərpic, kağız qablaşdırma zavodları, Yağ-Piy Kombinatı müəssisələri inşa edilmiş, Mərkəzi şəhər xəstəxanasının əsas korpusu, Doğum evi, Şirvan Reabilitasiya Mərkəzi və Mədəniyyət evi əsaslı şəkildə təmir olunmuşdur. Heydər Əliyev Fondunun təşəbbüsü ilə 5 məktəb, 110 yerlik körpələr evi-uşaq bağçası inşa olunmuş, modul tipli məktəb quraşdırılmış, o cümlədən 5 məktəbdə əsaslı, 16 məktəbdə təmir-tikinti işləri aparılmışdır. Sadalanan bu obyektlərin çoxunun təməlqoyma və açılış mərasimlərində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak etmişlər. Bu illər ərzində cənab İlham Əliyev Prezident kimi Şirvan şəhərinə 8 dəfə səfər etmişdir. Həmin səfərlərin hər biri sənaye şəhərinin inkişafında, problemlərinin həllində mühüm rol oynamışdır.

Məlumdur ki, ordumuz 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində düşmənin belini qıraraq zəfər çalmışdır. Bu, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, Silahlı Qüvvələrimizin rəşadəti, xalqımızın birliyi sayəsində mümkün olmuşdur. Qazanılan böyük qələbədə Şirvan şəhərinin mərd oğullarının da öz rolu var. Hər iki Qarabağ müharibəsi zamanı Şirvan şəhəri 157 şəhid vermişdir. Bu gün onların hər birinin xatirəsi əziz tutulur. Şəhərin şimal girəcəyindəki Şəhidlər xiyabanı şirvanlıların ən çox ziyarət etdikləri yerdir.

Bu qayğılarla bərabər, Şirvanda quruculuq işləri də davam edir. Şərqin böyük şairi Məhəmməd Füzulinin adını daşıyan park yenidən qurulur. Özü də zövqlə. İndi burada son tamamlama işləri görülür. Cari ilin sonuna kimi onun istifadəyə verilməsi nəzərdə tutulur. Parkın birinci hissəsində "Qarabağ" və "Zəfər" xiyabanları yerləşir. "Zəfər" abidəsi Azərbaycan əsgərinin məğlubedilməz simvolunu özündə təcəssüm etdirir. "İDEA" İctimai Birliyinin təşəbbüsü ilə yaradılan idman qurğuları isə yeniyetmə və gənclərin sağlam, fiziki cəhətdən hazırlıqlı olmasına xidmət edəcəkdir.

Şəhərdə sakinlərin razılıqla qarşıladığı işlərdən biri də çoxmərtəbəli evlərin ərazilərində abad məhəllələrin salınmasıdır. Bu məhəllələr əhalinin istirahətinə və boş vaxtlarını səmərəli keçirmələrinə hesablanmışdır. Onların hər birində yaşlılar üçün söhbətgahlar, uşaq, yeniyetmə və gənclər üçün əyləncə yerləri, idman qurğuları yaradılır. Belə məhəllələrin sayı şəhərdə 40-dır.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Kənd təsərrüfatı məhsullarının maya dəyərinə təsir edən xərc elementlərinin azalması təklif olunub

Məlum olduğu kimi, Vergi Məcəlləsinə təklif edilən dəyişikliklər paketi artıq Milli Məclisə təqdim olunub.

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, qanunvericiliyə təklif edilmiş dəyişikliklərin əsas istiqamətləri sahibkarlıq fəaliyyətinin təşviq olunması, vergitutma bazasının genişləndirilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə-vergi yükünün azaldılması, vergi uçotunun, vergitutma və vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi, sahibkarlıq subyektlərinə vergi təşviqlərinin verilməsi və sair istiqamətləri əhatə edir.

Qanun layihəsi ilə bağlı müzakirələr davam etdiyindən Dövlət Vergi Xidməti təklif olunan bəzi əsas dəyişikliklər və onların əsaslandırılmasını hissə-hissə ictimaiyyətin diqqətinə təqdim edir.

Kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışına güzəştlər sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi üzrə Vergi Məcəlləsinə təklif edilmiş növbəti dəyişikliklərdən biri kənd təsərrüfatı məhsullarının maya dəyərinə təsir edən xərc elementlərinin azaldılmasına və beləliklə də, daxili bazarda qiymətlərin enməsi üçün iqtisadi zəminin yaradılmasına yönəlmiş dəyişikliklərdir.

Layihəyə əsasən, 2022-ci il yanvarın 1-dən 2 il müddətində kənd təsərrüfatı məhsullarının topdan və pərakəndə satışı zamanı ƏDV-nin ticarət əlavəsindən hesablanması, habelə kənd təsərrüfatı texnikalarının operativ lizinqə verilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı aqrotexniki xidmətlərin ƏDV-dən azad edilməsi təklif olunur.

Bu istiqamətdə birinci dəyişiklik - kənd təsərrüfatı məhsullarının bütün satış zənciri üzrə ƏDV-nin həmin məhsulların tam dəyərindən deyil, tətbiq edilən ticarət əlavəsindən hesablanmasıdır. Mövcud vəziyyətdə istehsalçıdan alınan kənd təsərrüfatı malları ƏDV-dən azad olunan əməliyyatla alındığı üçün həmin malların sonrakı satışı 18 faiz dərəcə ilə ƏDV-yə cəlb edilirdi. Təklif olunan dəyişiklik nəticəsində ƏDV bu malların ticarət əlavəsindən hesablanacağı üçün ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin enməsinə zəmin yaranacaq.

Həmin istiqamətdə ikinci dəyişiklik - kənd təsərrüfatı məhsullarının istehsal üzrə ƏDV-li xərc elementlərinin ƏDV-dən azad olunması (kənd təsərrüfatı məhsullarının istehsalçılarına göstərilən aqrotexniki xidmətlərin və onlara kənd təsərrüfatı texnikasının icarəyə (lizinqə) verilməsinin ƏDV-dən azad edilməsi) istehsal olunan kənd təsərrüfatı məhsullarının maya dəyərinin aşağı düşməsi ilə nəticələnəcək ki, bu da qiymətlərin azalmasına təsir edəcək.

## NDU-da "Arıçılıq mədəniyyəti və arıçıların qış qayğıları" mövzusunda seminar keçirilib

Naxçıvan Dövlət Universitetində (NDU) "Arıçılıq mədəniyyəti və arıçıların qış qayğıları" mövzusunda seminar təşkil olunub.

Universitetdən AZƏRTAC-a bildirilib ki, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsində keçirilən tədbirdə çıxış edən ali təhsil ocağının rektoru Elbrus İsayev muxtar respublikanın arıçıları ilə birlikdə universitetdə maarifləndirici seminarların, beynəlxalq konfransların təşkil olunduğunu vurğulayıb. Bildirib ki, ali təhsil ocağında arıçılığa dair kadr hazırlığı, bu sahədə elmin nailiyyətləri və qabaqcıl təcrübəni geniş yaymaq məqsədilə zəngin tədris bazası yaradılıb. Universitet əməkdaşları tərəfindən nəşr edilən ən yeni ədəbiyyatlar, jurnallar, bukletlər və eləcə də dünya arıçılıq elmində mövcud olan yeniliklər arıçılara təqdim olunur. Hər il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Arıçılıq məhsulları - bal festivalı"nda universitet müəllimləri iştirak edir, arıçılıq məhsullarını təqdim edirlər.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Əyyub Abdullayev çıxışında diqqətə çatdırıb ki, "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə arıçılara güzəştli kreditlərin verilməsi, istehsal və ixrac imkanlarının artırılması yeni uğurlar qazanılmasına zəmin yaradır. Muxtar respublikada arıçılığın inkişafına göstərilən hərtərəfli dəstək və fermerlərin bu sahəyə marağının artması bal və digər arıçılıq məhsullarının istehsalında artıma səbəb olur.

Universitetin Baytarlıq təbabəti kafedrasının müdiri, baytarlıq üzrə fəlsəfə doktoru, dosent Yunis Rüstəmli arıçılıq mədəniyyətinin formalaşdırılmasından bəhs edib.

Kafedranın baş müəllimi, baytarlıq üzrə fəlsəfə doktoru Əli Tahirov arı ailələrinin qışlamaya hazırlanmasından danışaraq payız dövründə görüləcək işləri, xəstəlik və parazitlərə qarşı mübarizə üsullarını diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikası Arıçıları" İctimai Birliyinin sədri Etibar Məmmədov arıçılığın inkişafının planlaşdırılması haqqında danışıb.

Sonda tədbir iştirakçıları fakültədə olan polenli nektarlı bitkilərin herbariləri, yeni nəsil arı pətəkləri, ana arı südünü almaq üçün vasitə, şansız arı paketi, ana arı sürfəköçürmə aləti və arı südü çərçivəsi - arıçılıq avadanlıqları ilə tanış olublar.

## Qubada heyvandarlığın inkişafını təbii şərait şərtləndirir

İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən Qubada heyvandarlıq daha gəlirli sahə hesab olunur.

Odur ki, əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsində mühüm rol oynayan bu sahə daha dinamik inkişaf edir.

Bol sulu çaylar, otlaqlarla zəngin ərazilər, bir də keçmişdən miras qalan təcrübə bu inkişafı sürətləndirir. Bir də aran yerindən fərqli olaraq Qubada heyvanlar dağlıq ərazilərdə bəslənildiyindən onların məhsulları ekoloji cəhətdən daha təmiz olur.

Hazırda rayonda qaramalın sayı 59,2 min başdan çoxdur ki, onların da əksəriyyəti (58,4 min baş) şəxsi təsərrüfatlardadır. Ailə-kəndli və ev təsərrüfatlarında bəslənən mal-qaranın artımı, ilk növbədə, bu sahəyə verilən dəstəyin nəticəsidir.

Rayonun kənd təsərrüfatı müəssisələrində bəslənən qara malın sayı isə 842 başdır. Hazırda həmin təsərrüfatların məhsulları respublikamızın bütün bölgələrinə göndərilir. Bu təsərrüfatlarda həmçinin onlarca insan daimi iş yeri ilə təmin edilib.

Qoyunçuluq da rayonda xüsusi ənənələrə malikdir. Təbii şərait hesabına inkişaf edən heyvandarlığın bu sahəsi rayon üzrə ət istehsalında əhəmiyyətli yer tutur. Məlumat üçün bildirək ki, son məlumata görə, Qubada qoyun və keçilərin sayı 250 min başdan çoxdur. Qoyunçuluq da əsasən şəxsi təsərrüfatlarda inkişaf edir. Rayon üzrə qoyun-keçilərin 98 faizi bu sektordadır.

Qubada süd istehsalında da artım müşahidə olunur. Rayon üzrə ilin əvvəlindən 22,8 min tondan çox süd və süd məhsulları istehsal olunub ki, bu da ötən ilin eyni dövründəkindən166 ton çoxdur. Südün satışında da heç bir problem yoxdur. Ət və süd məhsulları istehsal edən emal müəssisələri bu yerlərin xammalını həvəslə alırlar.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Qaranohur gölü payızda bir nağıl olur



İsmayıllı rayonu ərazisindəki Qaranohur gölü son illər ekoturizm həvəskarlarının ən sevimli səyahət məkanlarından birinə çevrilib.

AZƏRTAC xəbər verir ki, göl İsmayıllı şəhərindən şimal-şərq istiqamətdə 8 kilometr məsafədə yerləşir. Qaranohur dəniz səviyyəsindən 1520 metr hündürlükdədir.

Təbii gözəlliyi ilə seçilən göl böyük turizm potensialına malikdir və getdikcə daha çox turisti özünə cəlb edir. Gölə turistlər üçün piyada gəzintilər də təşkil edilir. Bu gəzinti Talıstan kəndindən başlamaqla gözəl mənzərəli yerlərdən keçərək, piyada 2-3 saat davam edir.

Qaranohur gölündə çəkilmiş bu gözoxşayan payız mənzərəsini azərbaycanlı fotoqraf Lyokin lentə köçürüb.

## Yeni yolların çəkilişi ölkənin bütün bölgələrini əhatə edir

## Yol infrastrukturu yenilənir, sosial-iqtisadi inkişaf sürətlənir



Bu il əsas diqqət işğaldan azad edilmiş ərazilərin bərpasına və yenidən qurulmasına yönəldilsə də, digər bölgələrdə də bir çox infrastruktur layihələri həyata keçirilir.

Prezident İlham Əliyev hələ ilin əvvəlində bildirmişdi ki, Qarabağdakı quruculuqla yanaşı, respublikanın başqa rayon və şəhərlərində nəzərdə tutulan işlər qaydasında davam edəcək. Bu istiqamətdə bir çox işlər artıq tamamlanıb, hətta yeni layihələrə start verilib.

İnfrastruktur layihələri sırasında yol çəkilişi ön yerlərdən birini tutur. Çünki yollar yeniləndikcə ölkədə iqtisadi həyat daha da canlanır, kənd təsərrüfatı, turizm və digər sahələrdə inkişaf sürətlənir. Yolların müasir səviyyədə inşası eləcə də əhalinin rahatlığını təmin edən əsas sosial amildir.

Cari ilin ötən ayları ərzində bir sıra yolların tikintisi, yaxud təmiri başa çatıb. Bu yolların açılışında dövlət başçısının iştirakı onların önəmli olduğuna bir daha diqqət çəkir. Aprel ayında Prezident yenidən qurulan Hacıqabul-Muğan avtomobil yolunun açılışını edib. Bu, uzunluğu 11,5 kilometr olan yoldur. Yolun yenidən qurulması 32 min nəfər əhalisi olan 2 yaşayış məntəqəsi arasında əlaqəni gücləndirməyə xidmət edir. Eyni zamanda əhalinin həm Bakı-Ələt-Qazax-Gürcüstanla dövlət sərhədi yoluna, həm də Hacıqabul-Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat çıxışı təmin olunur.

May ayında isə dövlət başçısı Naxçıvan Muxtar Respublikasına və Qəbələ rayonuna səfərləri çərçivəsində yeni yolların açılışında iştirak edib. Uzunluğu 50 kilometr olan Culfa-Ordubad magistral avtomobil yolunun 39 kilometri 2 zolaqlı, 11 kilometri 4 zolaqlıdır. Magistral yolda 4 yeni körpü tikilib, 6-sı isə yenidən qurulub. Yolun üzərində 101 su keçidi quraşdırılıb, suaparıcı kanallar çəkilib.

Müasir yol infrastrukturunun yaradılması muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsini təşkil edir. Son illər muxtar respublikada müasir standartlara uyğun avtomobil yolları salınıb, mövcud yol-nəqliyyat kompleksi təkmilləşdirilib, yeni körpülər tikilib. Rahat və abad yol isə, qeyd edildiyi kimi, dayanıqlı iqtisadi inkişafı təmin edən əsas amillərdəndir.

Xatırladaq ki, Culfa-Ordubad magistral yolunun inşası Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" və "Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən inşa olunub.

Bu il eləcə də Qəbələdə 20 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini rayon mərkəzindən və digər yaşayış məntəqələrindən ayıran, Bum-Tikanlı-Abrıx avtomobil yolunun 2-ci kilometrliyində Bum çayı üzərində yeni körpü və Bum qəsəbəsinə gedən 2 kilometrlik avtomobil yolu bərpadan sonra istifadəyə verilib. Bum çayı üzərində yeni körpü və yol Qəbələ rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq inşa edilib. Uzunluğu 310, eni 9 metr olan körpü sürücülərin və vətəndaşların rahat və təhlükəsiz hərəkətinin təmin edilməsində mühüm rol oynayır.

Goranboy rayonunda Prezidentin iştirakı ilə açılan Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolu da sona yaxınlaşmaqda olan ilin yadigarlarındandır. Ümumi uzunluğu 38 kilometr olan yol dövlət başçısının müvafiq sərəncamlarına əsasən tikilib. Bu məqsədlə Prezidentin Ehtiyat Fondundan vəsait ayrılıb. Sözügedən avtomobil yolunun tikintisi 8 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında və təbii ki, bölgədə iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyət kəsb edir.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarının həyata keçirilməyə başlandığı 2004-cü ildən bəri ölkəmizdə hər il 1000 kilometrdən çox yeni yol istifadəyə verilir. Prezidentin paytaxtda və bölgələrdə yeni yolların tikintisi barədə son aylarda verdiyi sərəncamlar bu istiqamətdə aparılan işlərin davamlı olduğunu bir daha təsdiqləyir. Belə ki, Kürdəmir rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (26 kilometr)-Qarasaqqal-Cəyli avtomobil yolunun tikintisi həyata keçiriləcək. Dörd min nəfər əhalinin iki yaşayış məntəqəsini birləşdirən bu yolun tikintisi məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 6 milyon manat ayrılacaq. Xızı rayonunun Giləzi-Xızı (18 kilometr)-Qarabulaq avtomobil yolunun tikintisinə isə 6,4 milyon manat sərf olunması qərara alınıb.

Paytaxtda da bir sıra yeni yollar tikiləcək. Bununla bağlı Prezident müvafiq sərəncamlar imzalayıb. Məsələn, Suraxanı rayonunun Qaraçuxur və Hövsan qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işləri davam etdiriləcək. Həmin rayonda eləcə də Zığ-Hövsan avtomobil yolu yenidən qurulacaq. Prezident Xəzər rayonunun Binə, Buzovna və Qala qəsəbələrində, həmçinin paytaxtın digər ərazilərində avtomobil yollarının yenidən qurulmasına aid sərəncamlar verib.

Mühüm sosial-iqtisadi amil olan yolların tikintisinə belə böyük diqqət bir daha sübut edir ki, Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların maraqları dayanır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***







## Şuşa Azərbaycanın mədəniyyət paytaxtıdır






● Qarabağ Azərbaycandır!



# Cıdır düzündən görünən gələcək

**Xalqımız Vətən müharibəsində qazandığımız Zəfərin birinci ildönümünü təntənə ilə qeyd etdi. Milli dövlətçilik tariximizin şərəf salnaməsi olan bu böyük hadisə əlamətdar bir tarixə çevrildi. Azad Şuşada üçrəngli bayrağımızın ucaldıldığı 8 Noyabr Zəfər Günümüz Azərbaycanın özü qədər əbədiyyətə qovuşdu. Nə qədər ki, Azərbaycan xalqı var, bu Zəfər böyük coşqu ilə qeyd ediləcək. Milli qürurumuzun təntənəsi kimi nəsilləri Vətənə sevgi ruhunda tərbiyələndirəcək.**

### "Zəfər" yolunun hekayəsi

Şuşa tarixən qeyrət qalamız sayılıb. Ruhumuzun şəhəri, mədəniyyət paytaxtımız olan Şuşa qələbəmizin də rəmzinə çevrildi. 8 Noyabr günü xalqımızın zəfəri Azərbaycanın hər yerində və əslində dünyanın azərbaycanlılar yaşayan bütün məkanlarında qeyd edilirdi. Bu münasibətlə müxtəlif mərasimlər təşkil olunmuşdu. Hər kəs fəxarət hissini, qürurunu, sevincini fərqli formada ifadə edirdi. Bu tədbirlərin, ümumxalq sevincinin ifadə formalarının hər biri doğma, əziz və dəyərli idi. Şuşada keçirilən Zəfər bayramının isə hüsnü tamam bambaşqa idi. Həmin gün nəbzimiz Şuşada döyünürdü. Bütün dünya azərbaycanlılarının gözü Şuşada idi. Əslində regiondakı proseslərə maraq göstərən hər kəsin nəzərləri Şuşaya yönəlmişdi. Azərbaycan Respublikasının Prezidenti, qalib Ordumuzun Müzəffər Ali Baş Komandanı İlham Əliyev də ölkəmizin birinci xanımı Mehriban xanım Əliyeva ilə birgə Zəfər bayramını Şuşada keçirirdi.

Bu gözəl məkana və ümumən işğaldan azad edilmiş yurdlarımıza bütün əvvəlki səfərləri kimi Azərbaycan Prezidenti indi də torpaqlarımıza abadlıq gətirmişdi. Bu səfəri ilə də quruculuğun, inkişafın, rifahın müjdələrini verirdi. Prezident İlham Əliyev Şuşaya gedərkən Qələbəmizin simvollarından olan "Zəfər" yolunun açılışını etdi. Bir il öncə qəhrəman əsgər və zabitlərimiz bu keçilməz yollarla gecə-gündüz irəliləyərək Şuşanın azadlığına nail olmuşdular. Onların misilsiz igidliyinin şahidinə çevrilən cığırların yerindən indi dağların qoynuna gümüş kəmər kimi dolanan rahat asfalt yol uzanıb gedir. Əsgər və zabitlərimizin qəhrəmanlıq yolunu indi qurucu insanlarımız davam etdirir. Bu, Azərbaycanın "Zəfər" yoludur, inkişaf yoludur. Bu yol qəhrəman övladlarımızın, qurucu insanlarımızın torpağın köksünə nəqş olunmuş əbədi imzasıdır. Bundan sonra minillər boyu hər dəfə o yoldan keçdikcə "Zəfər" yolunun hekayəsi xalqımıza böyüklüyümüzü, yenilməzliyimizi, qarşımızdakı hədəfləri xatırladacaq və yeni nəsillərimizə milli hədəflərə qovuşmaq üçün böyük mənəvi güc bəxş edəcək.

### Cıdır düzündə əkilən fidanlar

Azərbaycan Prezidenti Şuşada Zəfər bayramı ərəfəsində Daşaltı məscidinin, Şuşa Radio Televiziya Yayım Stansiyasının, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlini qoydu. Şuşadakı Aşağı Gövhər ağa məscidində, Mehmandarovların malikanə kompleksində Heydər Əliyev Fondunun apardığı bərpa işləri ilə tanış oldu. VIII Qlobal Bakı Forumunun Şuşaya səfər etmiş iştirakçıları ilə görüşərək səmimi söhbət etdi. Azad yurdlarımızda aparılan quruculuq tədbirləri barədə onlara məlumat verdi. Cıdır düzündə ağaclar əkdi. Şuşada basdırdığı fidanlarla bu torpaqların əsl sahibinin qayıtdığını, bundan sonra Azərbaycan xalqının bu torpaqlarda əbədi yaşayacağını və onun hər daşını, ağacını, çiçəyini göz bəbəyi kimi qoruyacağını, onlara yağı əlinin dəyməsinə bir daha imkan verməyəcəyini ana təbiətə müjdələdi. Xatırladaq ki, ermənilərin Azərbaycan xalqına qarşı mənfur əməlləri, separatçılıq fəaliyyəti 1988-ci ildə Şuşadakı Topxana meşəsində ağacların kəsilməsi ilə başlamışdı. Ermənilər bununla öz vandal xislətlərini büruzə vermişdilər. Növbəti onilliklərdə Azərbaycan torpaqlarında törədəcəkləri genişmiqyaslı vandalizm fəaliyyətinin ismarışını yetirmişdilər. Əfsuslar olsun ki, o zaman Azərbaycana rəhbərlik edənlərin qətiyyətsizliyi mənfur qonşularımızın bu əməllərinin qarşısını almağa, o vaxt yeni-yeni baş qaldıran erməni faşizminin əfi ilan kimi başını əzməyə imkan vermədi. Erməni faşistləri havadarlarının dəstəyi ilə fəaliyyətlərini genişləndirdilər. Təxminən 30 il ərzində başımıza olmazın müsibətlər açdılar. İşğal etdikləri yurdlarımızdakı qurulu evlərimiz, şəhər, kənd və qəsəbələrimiz, tarixi abidələrimiz, müqəddəs məkanlarımız kimi hətta ağaclara, çaylara, dağa-daşa da qənim kəsildilər. Vəhşi qəbilə sürüsü kimi gözlərinə görünən, gücləri çatan nə varsa, qırıb-çatdılar, dağıdıb tökdülər.

Vətən müharibəsindəki Zəfərimizdən sonra artıq təbiət də nəfəs almağa başlayıb. Prezident İlham Əliyevin həmin gün Cıdır düzündə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birgə əkdiyi fidanlar bu yerlərə həyatın qayıtmasının rəmzidir. O fidanlar tezliklə böyüyəcək, pərli-budaqlı ağaclar kimi boy göstərəcək. Zəfərimizi, qurucu əllərin gücünü hər kəsə xatırladacaq, Şuşadan, bu müqəddəs məkandan Yer üzünün ciyərlərinə azadlıq, inkişaf, xoşbəxtlik havası bəxş edəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Yerinə yetirilən söz

**Ali Baş Komandan Zəfər günü Şuşada hərbçilər qarşısında tarixi çıxış etdi. İkinci Qarabağ müharibəsinin şanlı tariximizin parlaq səhifəsi olduğunu vurğuladı. Azərbaycan xalqının bütün gücünü səfərbər edərək bu şanlı missiyanı yerinə yetirdiyini bildirdi.**

"Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.

2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçilən zaman Azərbaycan xalqına müraciət edərək demişdim ki, nəyin bahasına olursa-olsun, biz öz tarixi torpaqlarımızı düşmənin əlindən alacağıq. İstər sülh yolu ilə, istər müharibə yolu ilə və belə də oldu".

Azərbaycan Prezidentinin fəaliyyətini yaxından izləyən hər kəs yaxşı bilir ki, dövlət rəhbərimiz heç zaman yerinə yetirilməsi qeyri-real olan sözləri dilə gətirmir. Amma əgər nələrsə cənab İlham Əliyevin dilindən səsləndisə, deməli, o reallığa çevriləcək. Zəmanəsinin ən parlaq liderlərindən biri kimi Azərbaycan Prezidenti bu illər ərzində həm xalq qarşısında, həm də beynəlxalq münasibətlərdə verdiyi bütün sözləri tutub. Prezident İlham Əliyev şəxsiyyətinə böyük rəğbətin ən mühüm səbəblərindən biri də elə dövlət rəhbərimizin verdiyi sözlərə sadiqliyidir, sözünün də imzası qədər dəyərli, mötəbər olmasıdır.

Ölkə rəhbərimizin indiyə qədər tarix qarşısında yerinə yetirdiyi ən böyük söz torpaqlarımızın azadlığıdır. Bu, indi bəlkə də çoxlarına asan görünür. İllər keçdikdən, nəsillər bir-birini əvəz etdikdən sonra Azərbaycanın bu qədər çətin bir missiyanın öhdəsindən gələ bilməsi tarixin o üzündən daha da asan görünəcək. Amma bu Zəfərdə illərin əziyyəti var. Azərbaycan bu Zəfəri Ümummilli Lider Heydər Əliyevin və böyük rəhbərin strateji kursunu davam etdirən Prezident İlham Əliyevin illərlə çəkdiyi zəhmət hesabına qazandı.

### "Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq"

Ali Baş Komandan Şuşadakı tarixi çıxışında dedi: "Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır. Bildiyiniz kimi, ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi mənim Prezident kimi başlıca vəzifəm idi və təsadüfi deyil ki, mənim Prezidentlik dövrümdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Bu illər ərzində biz güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirilmişdi və hərbçilər tərəfindən bu texnika layiqincə istifadə olundu. İkinci Qarabağ müharibəsi bunun əyani sübutudur. Ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artdı. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı".

Azərbaycan bu Zəfərə nail olmaqdan ötrü iqtisadiyyatını gücləndirdi. Ölkəmizin iqtisadi müstəqilliyi təmin olundu. Çünki ölkə rəhbərliyi buna nail olmadan düşməni torpaqlarımızdan qovmağın mümkünsüzlüyünün fərqində idi. "Əgər biz asılı vəziyyətdə olsaydıq, hansısa başqa böyük dövlətlərdən asılı olsaydıq, heç vaxt bizə imkan verməzdilər ki, biz bu şərəfli missiyanı yerinə yetirək. Ona görə Prezident kimi ilk günlərdən iqtisadi müstəqilliyə hesablanmış bütün lazımi addımlar atıldı və qısa müddət ərzində biz buna nail olduq. Bu gün dünya miqyasında iqtisadi potensial baxımından və iqtisadi sabitlik baxımından Azərbaycan birinci sıralardadır" dedi Azərbaycan Prezidenti və əlavə etdi ki, iqtisadi müstəqillik əldə edilməsəydi, siyasi müstəqillikdən söhbət gedə bilməzdi: "Biz asılı vəziyyətdə ola bilərdik. Necə ki, bu gün bir çox ölkələr asılı vəziyyətdədir və məhz buna görə öz iradəsini ortaya qoya bilmirlər. Siyasi müstəqillik imkan verdi ki, biz bütün tərəfdaşlarla bərabərhüquqlu, qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qura bildik. Beləliklə, torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri təmin edilmişdi".

Azərbaycan bütün bunlara paralel olaraq Qarabağ həqiqətlərini, işğalla bağlı erməni vəhşiliyini dünya ictimaiyyətinə çatdıra bildi. Birinci Qarabağ müharibəsində və ondan sonrakı dövrlərdə erməni lobbisinin Azərbaycan ətrafında qurduğu informasiya blokadasını yarmağı bacardı. Ermənilərin illərlə dünyada yaydıqları yalanları ifşa etdi. Dünyada bu münaqişə ilə bağlı tədricən aydın təsəvvürlər formalaşdırıldı. "Gecə-gündüz çalışaraq dünya ictimaiyyətini məlumatlandırdıq, aparıcı beynəlxalq təşkilatlarda uğurlu iş apararaq bizə əl verən və həqiqəti əks etdirən qərar və qətnamələri qəbul etdirdik. Bütün bu işlər bugünkü reallıq üçün hüquqi bazadır. Çünki bu gün biz düşməni torpağımızdan qovandan sonra heç kim bizə irad tuta bilməz. Çünki biz öz torpağımızda uğurlu əməliyyat aparmışıq, biz beynəlxalq hüququ pozmamışıq, müharibə qanunlarını pozmamışıq. Ədalətli müharibə aparmışıq və döyüş meydanında düşməni məğlub etmişik", - deyə Ali Baş Komandan İlham Əliyev bəyan etdi.

### Qarabağı unutmadıq

Azərbaycan Prezidenti onu da vurğuladı ki, digər önəmli amil gənc nəslin tərbiyəsi ilə bağlı olub. Böyük diqqət yetirilərək gənclər vətənpərvərlik ruhunda tərbiyə edilib. "İmkan vermədik ki, işğalla bağlı olan tarix unudulsun. Qarabağı unutmadıq, əksinə, hər bir kürsüdən bu məsələ ilə bağlı istər ölkə daxilindəki tədbirlərdə, istər beynəlxalq tədbirlərdə daim bu mövzu birinci nömrəli mövzu idi. Gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi".

Ordumuzun uğurla yerinə yetirdiyi tarixi missiyanı bu gün iqtisadi qurumlarımız eyni əzmlə davam etdirir. Azad yurdlarımızda quruculuq tədbirləri həyata keçirilir. Düşmənin onillərlə dağıtdığı, inkişaf axarından kənar saldığı həyat yenidən bərpa olunur. Azərbaycan dövlətinin sürətlə həyata keçirdiyi quruculuq tədbirləri ilə Qarabağın, Şərqi Zəngəzurun yeni cəlalı, möhtəşəm tarixi başlanır. Vətən müharibəsindəki tarixi Zəfəri ilə regiondakı reallıqları dəyişmiş Azərbaycan sülh, inkişaf, xoşbəxtlik arzusunda olan bütün tərəfləri qarşılıqlı faydalı əməkdaşlığa, xoş məramlar ətrafında imkanları birləşdirməyə çağırır.

Bizi bu günlərə gətirib çıxarmış tarix Azərbaycanın Zəfər yoludur. 8 Noyabr Zəfər bayramımız bu yolun çox böyük bir mərhələsidir. Bu, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, rəşadət bayramı, ədalət bayramı, milli qürur, milli ləyaqət bayramıdır. "Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq".

Azərbaycanın Zəfər yolu yeni nailiyyətlərlə davam edir.

Yolumuz açıq olsun!

***İ.ƏLİYEVA,***
***"Azərbaycan"***

● Qafqazın incisi

# Maarif və mədəniyyət işığında dirçəliş

**1752-ci ildə Pənahəli xanın tikdirdiyi Şuşa qalası zəngin və keşməkeşli tarixi hadisələrin şahidi olub. Zaman-zaman düşmən silahı ilə bağrı qana dönüb, sakinləri müsibətlər çəkiblər...**

XVIII əsrin sonlarında 162 ailə, təqribən 2 min nəfər yaşayıb Şuşada. Onlardan 1800-ü müsəlmanlığı qəbul etmiş Azərbaycan türkləri, qalanı isə xristian dinini qoruyub saxlamış albanlar idi.

Şuşa 1805-ci il mayın 14-də imzalanan Kürəkçay müqaviləsilə Qarabağ xanlığının tərkibində çar Rusiyasının müstəmləkəsinə çevrilib. Tədqiqatçılar XIX əsrin əvvəllərinə aid tarixi faktlara əsaslanaraq, xristianların yalnız Şuşada yox, bütün Qarabağ xanlığında əhalinin az hissəsini təşkil etdiyini bildiriblər. 1823-cü ilə aid məlumatlardan həmin dövrdə Qarabağ xanlığında yaşayan 20035 ailədən 15729-nun Azərbaycan türkləri, 4366-nın isə xristian ailələr olduğu bəllidir. Amma çarizmin müstəmləkə siyasətinə uyğun, ardıcıl olaraq, yalnız Şuşaya deyil, bütün Qarabağa Anadolu və İrandan ermənilər, Rusiyadan malakanlar köçürülüb.

Mürəkkəb, ziddiyyətli tarixi yol keçsə də, Şuşanın Azərbaycanda maarifçiliyin yayılmasında, mədəniyyətin tərəqqisində xüsusi yeri, əhəmiyyətli rolu olub. 1830-cu ildə Şuşa qəza məktəbi, 1874-cü ildə Şuşa şəhər məktəbi açılıb. Bu təhsil ocaqları nəinki Azərbaycanda, eləcə də Cənubi Qafqazda ilk şəhər məktəbləri olub. Üç sinifli, 1878-ci ildən isə dörd sinifli Şuşa qəza məktəbində ana dili, tarix, rus dili və fransız dilinin tədrisinə üstünlük verilib. Şuşada şəhər məktəblərinin nəzdində zəngin kitabxanalar yaradılıb.

Fəaliyyətə başladığı ilk illərdə Şuşa şəhər məktəbinin 375 şagirdi olub. Bu təhsil müəssisəsi çar Rusiyası ərazisində ən çox şagirdi olan yeni tipli məktəb hesab edilib. Məktəbin şagirdləri 1875-ci ilin mayından dövlət hesabına pansionda yaşayıb təhsil alıblar.

1880-ci ildə Şuşa şəhər məktəbinin nəzdində açılan musiqi sinifləri burada peşəkar musiqi hazırlığı olan musiqiçilər nəslinin yetişməsində misilsiz rol oynayıb.

1881-ci il sentyabrın 20-də isə Şuşada altı sinifli realnı məktəbin bünövrəsi qoyulub. Bu nümunəvi təhsil ocağında şagirdlərin tərbiyəsində əhəmiyyəti nəzərə alınaraq ədəbiyyatın tədrisinə xüsusi diqqət göstərilib.

Şuşada 1850-ci illərdən ədəbi-musiqili məclislər fəaliyyətə başlayıb. "Nəvvabın məclisi", "Muğam məktəbi", "Məclisi-fəramuşan" və "Məclisi-üns"ə Şuşanın istedadlı və yaradıcı ziyalıları toplaşıblar. Mir Möhsün Nəvvab, Xurşudbanu Natəvan, Mirzə Rəhim Fəna, Mirzə Ələsgər Növrəs, Mirzə Həsən Yüzbaşov-Qarabaği, Məmo bəy Məmai, Fatma xanım Kəminə, Hacı Abbas Agah, Abdulla bəy Asi, Baxış bəy Səbur, Xarrat Qulu, Kor Xəlifə, Hacı Hüsü, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Əbdülbağı Zülalov (Bülbülcan) və digər şairlər, musiqiçilər həmin məclislərin daimi iştirakçıları olublar.

Şəhərdə maarifin, mədəniyyətin inkişafı getdikcə genişlənib. 1897-ci ilin fevralında Mir Möhsün Nəvvab kitabxana yaradıb. Bu, Şuşada ilk şəhər kitabxanası olub. Şuşada ilk mətbəə isə 1830-cu ildə fəaliyyətə başlayıb. Həmin daş mətbəədə Şuşa şairlərinin şeirləri çap edilib.

Şuşa ziyalıları 1848-ci ildən teatr tamaşaları hazırlamağa başlayıblar. 1894-cü ilin yayında xeyriyyə məqsədilə bir-birinin ardınca "Hacı Qara", "Müsyö Jordan və dərviş Məstəli şah", "Xırs quldurbasan" pyesləri səhnələşdirilib. 1895-ci ildə yerli müəllimlərdən Haşım bəy Vəzirovun "Evlənmək su içmək deyil", 1896-cı ildə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" əsərlərinin ilk tamaşaları göstərilib. Əldə olunan pul məktəblərə verilib.

1904-cü ilin avqustunda Şuşada göstərilən "Otello" tamaşasının şöhrəti Azərbaycandan kənara da yayılıb. Tamaşanın quruluşunu əsərin tərcüməçisi və baş rolun ifaçısı Haşım bəy Vəzirov verib.

XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib. Şəhərin "Zaqafqaziyanın konservatoriyası", "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" adlandırılmasında istedadlı övladlarının misilsiz xidmətləri olub. 1912-ci ildə Şuşa xanəndələri Polşanın Varşava şəhərinə və digər Avropa ölkələrinə dəvət edilib. Onların bənzərsiz ifaları lent yazılarının yaddaşına köçürülüb, konsertləri unudulmaz olub.





Şuşa musiqi məktəbinin yetirməsi, Azərbaycanın dahi övladı Üzeyir bəy Hacıbəylinin 1908-ci ildə yazdığı "Leyli və Məcnun" əsəri Yaxın Şərqdə ilk opera olub. Üzeyir bəy balet, simfonik muğam və digər janrlarda da bir-birindən dəyərli əsərlər bəstələyib. O, Azərbaycanda peşəkar musiqiçilərin yetişməsində böyük fədakarlıq göstərib.

Şuşada pedaqoji kursun ardınca Şuşa Pedaqoji Texnikumunun açılması Azərbaycan təhsilinin inkişafında uğurlu addımlar olub. Belə ki, həmin kursları bitirənlər şura hökuməti qurulduqdan sonra Qarabağ və Gəncə bölgələrində savadsızlığın ləğvində iştirak ediblər.

Azərbaycan vokal sənətinin banisi, görkəmli müğənni Bülbülün təşəbbüsü ilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 10 oktyabr 1932-ci il tarixli qərarına əsasən rəsmi olaraq Şuşa Musiqi Məktəbi yaradılıb. Bu həm də Azərbaycanda yaradılan ilk uşaq musiqi məktəbi olub. Xurşidbanu Natəvanın evi olmuş binada fəaliyyətə başlayan məktəbdə tar, kamança, fortepiano, skripka və vokal şöbələri fəaliyyət göstərib. Bu təhsil ocağı tezliklə Şuşanın mədəniyyət və incəsənət mərkəzinə çevrilib.

1980-ci illərdən bu şəhərdə Vaqif Poeziya Günlərinin, "Xarıbülbül" musiqi festivalının hər il keçirilməsi ənənəyə çevrilib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın mədəniyyət paytaxtı

**Şuşa öz növrağında idi. Qasım bəy Zakir, Firidun bəy Köçərli, Süleyman Sani Axundov, Haşım bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd bəy Aşiq, Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, İslam Abdullayev, Fərhad Ağazadə, Nəriman bəy Nərimanbəyli, Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli, Xəlil İbrahim və daha neçə-neçə istedadlı yetirmələri ilə daha da məşhurlaşırdı bu şəhər...**

Bir zamanlar çar Rusiyasının planı ilə Qarabağa, eləcə də Şuşaya köçürülən ermənilər isə bu yerlərin cah-cəlalına, maddi və mənəvi sərvətlərinə, əsrarəngiz gözəlliklərinə həsədlə baxırdılar. Onları özgə torpaqlarında məskunlaşdıranlara arxalanaraq yurd saldıqları yerləri erməniləşdirməyə çalışırdılar. Qarabağ tarixinin nəinki təhrif olunması, hətta tamamilə yanlış təqdim edilməsi məqsədilə yürüdülən siyasət illərlə, əsrlərlə aparılıb. Nəhayət, XX əsrin sonunda Azərbaycanın bu bənzərsiz bölgəsi xarici havadarlarına güvənən, onlardan hər cür yardım alan ermənilər tərəfindən işğal edilib. Qəsbkarlar bununla planlarının baş tutduğuna ümidləniblər. Ancaq sonunda yenə də haqq, ədalət qalib gəldi. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı qüvvələrinə tarixi dərs verdi.

Qədim qala şəhərimiz Şuşa 1992-ci il mayın 8-də yağıların əlinə keçmişdi. 2020-ci il noyabrın 8-də müzəffər Azərbaycan Ordusu Şuşanın işğalına son qoydu.

Prezident İlham Əliyev həmin gün Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində dedi: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" Strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayan Azərbaycan Prezidenti bildirdi: "Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik... O cümlədən, Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır".

Şəhərə qədəm basan hər bir azərbaycanlının sevinc, qürur hisslərinə bir qüssə də qarışdı. Çünki ermənilərin Azərbaycan torpaqlarına vurduğu maddi və mənəvi zərər daha aydın göründü. Ermənistan Şuşa şəhərində otuz ilə yaxın Azərbaycan xalqının tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdi. Azərbaycanın incisi sayılan Şuşa şəhərində erməni vandalizminin davam etdiyi illər ərzində memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası, 160-dək mədəniyyət və tarixi abidə, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəbi, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 14 klub, 2 kinoteatr, 3 muzey, turizm bazası, Şərq musiqi alətləri fabriki dağıdıldı, məbədgah və məscidlər təhqir, çox sayda nadir əlyazma nümunələri məhv edildi, 20 kitabxana yandırıldı.

Erməni işğalından qurtulan Qarabağ qalib vətənimiz Azərbaycana qovuşduqdan dərhal sonra Prezident İlham Əliyev mühüm planların hazırlanaraq icra olunması barədə qərarlar verdi.

Olduqca əhəmiyyətli qərarlardan biri də dövlət başçısı İlham Əliyevin 2020-ci il mayın 7-də imzaladığı "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamı oldu.

Bu gün Şuşada həyata keçirilən bərpa-quruculuq işlərinə böyük həssaslıqla yanaşılır. Şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xüsusi diqqət göstərilir. Şuşanın tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi mədəni həyatına qovuşması üçün Azərbaycan dövləti tərəfindən möhtəşəm işlər həyata keçirilir.

Şuşanın şöhrətli günləri özünə qaytarılır. Şəhər yenidən Azərbaycanın mədəniyyət məbədi, musiqi beşiyi olacaq. İlk tədbirlər görülüb. Bu il Şuşada Vaqif Poeziya Günlərinin və "Xarı bülbül" musiqi festivalının bərpa olunması bunun nümunəsidir.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

Deməsək olmur

# Soyuq gündə isti dərdi

## Mərkəzi istilik sisteminə qoşulanların içi özlərini yandırır, çölü özgəni

Təbii qazın istehlak qiymətləri və limitləri sonuncu dəfə dəyişdirildikdən sonra evini və mənzilini yaxşı halda kombi, pis halda isə camaatın "ceyran peçi" adlandırdığı soba və ya mətbəx plitəsi ilə qızdıranlar mərkəzi istilik sistemindən istifadə edənlərə həsəd aparmağa başladılar.



Boş yerdən deyildi. Axı mərkəzi istilik sistemindən istifadə haqqı kombiyə, yaxud plitəyə və sobaya sərf olunan təbii qazın qiymətindən dəfələrlə ucuz başa gəlir. İndiki vaxtda isə bu, əksəriyyət üçün heç də az (maddi) əhəmiyyət kəsb etmir.

Elə bu səbəbdən dövlət tərəfindən hər il "Azəristiliktəchizat" ASC-yə külli miqdarda vəsait ayrılır ki, ölkə ərazisində, xüsusən paytaxtda daha çox yaşayış evi, sosial obyekt mərkəzi istilik sisteminə qoşulsun. Heç şübhəsiz ki, bu addımın atılması dövlətin dolayısı yolla əhalinin təbii qazın bahalaşmasından imkan daxilində minimum ziyan çəkməsinə xidmət edir. Gəlin etiraf edək ki, təbii qazın ən çox istehlak olunduğu qış aylarında 2-3 otaqlı mənzilin qızdırılması üçün hər ay ödənilən 10-15 manat ailə büdcəsinə elə də böyük təsir edəcək məbləğ deyil, xüsusən də kombinin, yaxud "ceyran peçi"nin sərf etdiyi qazın qiyməti ilə müqayisədə.

Amma gəlin görək dövlətin qiymət məsələsində əhaliyə yönəlik bu humanist siyasət həmin vəzifənin icrasına birbaşa cavabdeh olan "Azəristiliktəchizat" ASC tərəfindən necə yerinə yetirilir. Əgər ASC-nin veb-saytında yerləşdirilən arayışa inansaq, qurum cari mövsüm bu istiqamətdə müəyyən tədbirlər həyata keçirmişdir. Məsələn, arayışda bildirilir ki, ASC cari qış ayları 554 qazanxanası vasitəsilə 3871 yaşayış binasına, o cümlədən 184 minə yaxın mənzilə, 281 məktəbə, 160 uşaq bağçasına, 161 səhiyyə müəssisəsinə, 1980 digər sosial və təsərrüfat obyektinə istilik verir. Bunun üçün qazanxana və istilik məntəqələrində nasoslar, istilik mühərrikləri təmir olunmuş, qazanlar və istilik mübadilə aparatları təmizlənmiş, nəzarət ölçü cihazlarının avtomat və elektrik avadanlıqları dəyişdirilmiş və sazlanmış, bütün istilik xətləri təzyiqlə yoxlanılaraq sınaqdan keçirilmişdir və s. Sözsüz ki, arayış uzundur və bu üzdən orada qeyd olunanların hamısını təkrar etməyə ehtiyac duymuruq. Bir də bu cür arayışlarda yazılanların hamısı doğru olsaydı, heç bir xidmət sahəsində, o cümlədən istiliklə təchizatda problem yaranmazdı ki...

Elə isə keçək əsas mətləbə. Məlumdur ki, artıq bir neçə gündür (dağlıq və dağətəyi rayonlarda noyabrın 1-dən, digər ərazilərdə 15-dən) ölkəmizdə istilik mövsümü başlamışdır. Yeri gəlmişkən, istilik mövsümünün başlanmasının konkret günlə müəyyən olunmasının özü mübahisəli məsələdir və bununla bağlı qəzetimiz də yaxın günlərdə (28 oktyabr tarixli nömrədə) replika dərc etmişdir. Özü də bu, birinci dəfə deyildi ki, qəzetimiz həmin mövzunu gündəmə gətirirdi. Amma nə fayda, "Azəristiliktəchizat"a sübut edə bilmirik ki, havanın soyuqluğu təqvimlə yox, temperaturla müəyyən olunur. İndi isə mövzumuz bununla deyil, istiliyin özü ilə bağlıdır.

Bəli, nəhayət ki, noyabrın 15-i yetişmişdir. Deməli, evin içində alt-üst geyinməyə, yatanda ikiqat yorğana bürünməyə ehtiyac olmayacaq. Deyəsən tələsdik. Axı adamın canı "Azəristiliktəchizat"ın təqvimi və arayışı ilə yox, mənzillərə verilən istiliklə qızır. Lakin qızırmı?

Noyabrın 15-dən paytaxt sakinləri tərəfindən mənzillərinə istilik verilməməsi ilə bağlı redaksiyamıza daxil edilən telefon zəngləri susmur. Elə onlar dərddə olan əməkdaşlarımız da az deyil. Kimi istiliyin çox az verilməsindən, kimi də yerli-dibli olmamasından şikayətçidir. Onu da bilirik ki, belə şikayətçilərin sayı yüzlərlə yox, minlərlədir. O üzdən bizə müraciət edən şikayətçilərin kimliyini, ünvanını yazmağı lüzum bilmirik, xüsusən də bu, heç nəyi dəyişməyəcəksə. Çünki "başına gələn başmaqçı olar". Birinci il deyil ki, xüsusən paytaxtda istilik problemi yaşanır. Hətta "Azəristiliktəchizat" ASC-nin şablon cavablarını da əzbərləmişik: "Biz istiliyin binayacan olan hissəsinə cavabdehlik, mənzillərə paylanması MİS-lərin, MTK-ların və s. aidiyyəti qurumların işidir". İndi gəl, vətəndaşa bu soyuq günlər mənzilində titrəməyinin səbəbkarının kim, yaxud hansı qurum olduğunu izah et. Deyəcək ki, "kimin haracan cavabdeh olması mənim nəyimə lazımdır, pulumu ödəyirəm, istiliyimi verin! Vermirsinizsə, vaxtında deyin, başımızın çarəsini qılaq". Təbii ki, haqlıdır.

Təəssüf ki, mərkəzi istilik sisteminə qoşulan bir çox evlərin qızdırılmamasının səbəbi təkcə kiminsə nə vaxtsa eyni işi bir neçə xidmət təşkilatının öhdəsinə verməklə yaratdığı bu problem deyil. "Azəristiliktəchizat" ASC-nin "Azəriqaz"a borcunun yalnız mövsüm vaxtı yada düşməsi də bu iki qurumun tutulduğu köhnə mərəzdir. Bütün il boyu yadlarına düşmür ki, verəcəkləri-alacaqları var, yalnız mövsüm başlayanda ayılırlar. Onda da gec olur və nəticədə qazanxanalar qazsız, deməli, evlər istiliksiz qalır. Düzdür, hökumət işə qarışandan sonra məsələ həll edilir. Lakin bunun üçün vaxt lazım olur, o vaxt ki, vətəndaş onu mənzilində dişləri bir-birinə dəyə-dəyə yaşamaq məcburiyyətində qalır. Olmaz ki, həmin borc məsələsi mövsüm başlanmamışdan həll edilsin?

Təbii ki, olar! Amma bunun üçün istək və məsuliyyət lazımdır. Yəqin elə bunların olmamasının nəticəsidir ki, noyabrın 15-dən paytaxtın minlərlə sakininin əli evlərindəki istilik batareyalarında qalıb.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Kaspi" MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


### "Milli Hematologiya və Transfuziologiya Mərkəzi" publik hüquqi şəxsi 222290 "Digər kommunal xidmətlərin haqqının ödənilməsi" xərc maddəsi üzrə camaşırların yuyulması işlərinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar **+99451 250-70-53** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 16.11.2021-ci il saat 16:00-dan 03.12.2021-ci il saat 10:00-dək qəbul olunur.

**Ünvan: Mirəli Qaşqay, 145**
**Telefon nömrəsi: +99451 250-70-53**
**E-mail: rtmmuhasibatliq@gmail.com**

***Tender komissiyası***

### Azərbaycan Milli Elmlər Akademiyası Fizika İnstitutu "Yüksək gərginlikli elektrik qaz boşalmasının təsiri ilə təbii qazdan və sudan hidrogenin alınması" üzrə elmi layihənin həyata keçirilməsi ilə əlaqədar təcrübi-sınaq qurğusunun hazırlanmasının təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 539 69 53 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 19 noyabr 2021-ci il saat 09:00-dan 06 dekabr 2021-ci il tarixədək qəbul olunur.

İddiaçıların təklifləri 07 dekabr 2021-ci il saat 11:00-da Bakı şəhəri, Hüseyn Cavid, 131 ünvanında inzibati binanın 326-cı otağında açılacaqdır.

***Tender komissiyası***

### BİLDİRİŞ

Bakı İlkin Səhiyyə Xidmətləri Mərkəzi (VÖEN: 1405683411) ləğv olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələblərini Bakı şəhəri Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına bildirə bilərlər.

***Rəhbərlik***

## *Baş Prokurorluq:* "DSX Akademiyasının kursantının intihar etməsi ilə bağlı cinayət işi başlanıb"

Baş Prokurorluq Dövlət Sərhəd Xidməti (DSX) Akademiyasının kursantının intihar etməsi ilə bağlı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə mətbuatın sorğusunu cavablandıran Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı məlumatda bildirilir: "DSX Akademiyasının kursantı 2003-cü il təvəllüdlü Nəbiyev Telman Elman oğlunun noyabrın 17-də intihar etməsi faktına görə Bakı Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə cinayət işi başlanıb və hazırda istintaq aparılır".

### Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən uşaqlara həvəsləndirici hədiyyələrin verilməsi**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi nəzərə alınmaqla

Azərbaycan Beynəlxalq Bankı **("ASAN ödəniş" ilə Portal vasitəsilə ödəniş olunmalıdır)**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi - 002306-2318501;**
**Funksional təsnifat - 00113;**
**İqtisadi təsnifat - 142330 (sair daxilolmalar)**
**İştirak haqqı - 100 man**
**İştirak haqqı heç bir halda geri gaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə **10.12.2021-ci il saat 12:00-a** kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat.*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini **10.12.2021-ci il tarixinə kimi** və tender təklifi ilə bank təminatı sənədlərini **20 dekabr 2021-ci il saat 16:00-a qədər** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **21 dekabr 2021-ci il saat 12:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir

Azərbaycanda noyabrın 19-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı, axşama doğru tədricən kəsiləcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 6-10°, gündüz 11-13° isti, Bakıda gecə 7-9°, gündüz 11-13° isti olacaq. Atmosfer təzyiqi 769 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 19-da Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-5°, gündüz 10-15° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 5-10° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 12-17° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, dağlarda 6°-dək şaxta, gündüz 5-10° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-14° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 9-13° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3-8° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında çiskinli olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək, gecə və səhər arabir güclənəcək. Havanın temperaturunun gecə 1-4°, gündüz 10-15° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-4°, gündüz 10-14° isti, dağlarda gecə 2° şaxtadan 2°-dək isti, gündüz 5-8° isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2306
Qiyməti 40 qəpik